

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Heydər Əliyev Mərkəzində "Yenidən doğulmuş gözəllik" adlı sərgi açılıb



5

SƏS
№ 228 (7153)
11 dekabr 2024-cü il.
Qiymәti 60 qәpik

# Azərbaycan və Türkiyə prezidentləri arasında telefon danışığı olub



4

# Avropa: problemlər və günahkarlar

## Rusiya ilə NATO arasında müharibə olacaqmı?



14

## Pavel Klaçkov: Cənubi Qafqazda vəziyyət dəyişəcək, Ermənistan təklənəcək



9

## Əmək pensiyasını təyin edən orqandan məhkəməyə şikayət edilə bilərmi?



16

## Hansı balığa üstünlük verək?



11

## Bu sürücülər cərimələnəcək - yol polisindən XƏBƏRDARLIQ



16

## Qlobal jandarmın təcavüz strategiyası



8

# İnsan hüquq və azadlıqları: Ulu Öndərin yaratdığı reallıq

***Hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü vurğulayan Ümummilli Lider Heydər Əliyev ölkəmizdə hakimiyyətdə olduğu bütün dövrlərdə fəaliyyətini dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimlənməsi, insanların hüquq və azadlıqlarının yüksək səviyyədə qorunması, humanizm ideyalarının möhkəm təmələ çevrilməsi, sivil cəmiyyətin formalaşması, idarəçilikdə demokratik ənənələrin bərqərar olması istiqamətində qurmuşdur. Beləliklə, Azərbaycanın müasir tarixinin 35 ili Ulu Öndərin ölkəmizin demokratik inkişafının, xalqın hüquq və azadlıqlarının keşiyində dayanması kimi xarakterizə olunur.***



## Sovet Azərbaycanında Ulu Öndərin yaratdığı reallıq

İnsanların hüquq və azadlıqları sözsüz ki, tək hüquqi müstəvidə tam olmur. Bunun



siyasi, iqtisadi, həm də mənəvi tərəfləri var. Ölkənin müstəqilliyi, iqtisadiyyatin inkişafı, vətəndaşların rifah halının yüksəlməsi, sabitliyin, dinc yaşayışın bərqərar olması, insanlara hərtərəfli azadlıqların verilməsi, maraqlarının təmin olunması onların hüquq və azadlıqlarının tamlığını şərtləndirən amildir. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində yaradılmış siyasi, iqtisadi və mənəvi baza məhz buna xidmət etmişdir.

1969-1982-ci illərdə sovet ittifaqının tərkibində olan ölkəmizə rəhbərlik edən Ümummilli Liderimizin yaratdığı reallığa nəzər salanda aydın olur ki, başqa bir quruluşa tabe ölkədə qanunçuluğu və hüquq qaydasını möhkəmləndirmək, strateji əhəmiyyətli sənaye və istehsal müəssisələrinin inşasına nail olmaq, bütün sahələrdə geridə qalmış Azərbaycanın iqtisadi inkişaf göstəricilərinə görə ittifaq miqyasında ilk yerlərdən birini tutmasını təmin etmək, bütün bunların fonunda isə xalqın gələcək müstəqilliyinə zəmin yaratmaq üçün uzaqgörən addımlar atmaq hər siyasi xadimin gücü daxilində olan məsələ deyildi. Lakin Ulu Öndər bu reallığı yaratdı. Bu reallıqda hər zaman insan amili, xalqın rifahı, bu günü, sabahı ilə bağlı arzuları, hüquq və azadlıqları ön sırada dayanırdı və sonrakı mərhələlərdə də bunların bütün işlərlə paralel şəkildə həyata keçirildiyinin şahidi olduq.

## 1990-1993: 20 Yanvar, Xocalı faciələrində, Qarabağın işğalında və blokada Naxçıvanında insan hüquqlarının müdafiəsində

Ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsinə Ulu Öndər Heydər Əliyevin qayğısını dünya tarixində heç bir xalq öz liderindən görməyib. 1990-1993-cü illərdə faciələrlə, itkilərlə, əzab-əziyyətlərlə, hüquqlarının tapdalanması ilə qarşılaşan azərbaycanlılara mənəvi yanaşmada Heydər Əliyev nümunəsindən söhbət açmaq istəyirəm.

1990-cı illərin əvvəllərində ölkəmizdə hakimiyyət böhranı, xaos, anarxiya hökm sürürdü. Həmin dövrdə artıq ömrünün son anlarını yaşayan sovet imperiyası azadlıq və müstəqillik mücadiləsinə qalxmış Azərbaycan xalqını bu mübarizədən çəkindirmək üçün Bakıda qanlı 20 Yanvar faciəsini törətdi. Ölkə başçısı və dövlət strukturlarında çalışan bəzi məmurların qorxaqlığı və mərkəzə yarınmaq meylləri faciənin maneəsiz törədilməsinə geniş imkan yaratdı. Bu isə kütlələr arasında ümidsizliyin hökm sürməsinə səbəb oldu.

Heydər Əliyev bu məqamda xalqına, Vətəninə qarşı təcavüzə, xəyanətə, işğala dözməyib Moskvadan dünyaya sərt bəyanat verdi. Həyatının hər an təhlükədə olmasına baxmayaraq qətiyyətlə faciənin hüquqi-demokratik prinsiplərə zidd olduğunu, Azərbaycan xalqına qarşı hərbi təcavüzün SSRİ və Azərbaycan SSR rəhbərliyi tərəfindən həyata keçirildiyini bəyan etdi. Xalq Ulu Öndərin bu qətiyyətli addımı ilə ümidsizlikdən çıxdı. İlk dəfə hüquqlarının müdafiə edildiyini, müstəqillik arzularına dəyər verildiyini, kimsəsiz olmadığını anladı.

1992-ci il fevral ayının 26-da nankor ermənilər tərəfindən Xocalı şəhərində törədilən analoqu olmayan soyqırımının dünya miqyasında tanınmasının da əsas səbəbkarı, təşəbbüskarı Ümummilli Lider olmuşdur. Hələ Prezident səlahiyyətlərini həyata keçirərkən erməni təcavüzünün qarşısının alınması məqsədilə təcili tədbirlər görülməsi üçün BMT Təhlükəsizlik Şurasının dərhal çağırılması xahişi ilə Təhlükəsizlik Şurasının sədrinə 26 iyul 1993-cü il tarixli yazılı müraciət etmişdir.1994-cü il 24 fevralda Milli Məclisin qərarı ilə hər il fevralın 26-sının "Xocalı soyqırımı günü" kimi yad olunması və bu barədə beynəlxalq təşkilatlara məlumat verilməsi ilə Xocalı soyqırımına ilk dəfə siyasi qiymət verilmiş oldu. Ulu Öndərin "Azərbaycanlıların soyqırımı haqqında" imzaladığı 26 mart 1998-ci il tarixli Fərman isə ümumilikdə soyqırımı qurbanlarının hüquqlarının müdafiəsinə xidmət edən mühüm dövlət sənədi xarakteri daşıyır.

1988-ci ildən 1994-cü ilin may ayınadək davam edən Birinci Vətən müharibəsi zamanı qonşuluqdan kənar ermənilər himayədarlarının və Azərbaycan hakimiyyətini zəbt edən səriştəsiz ünsürlərin dəstəyi ilə Qarabağı və Şərqi Zəngəzurun müəyyən ərazilərini işğal etmiş, minlərlə soydaşımızı ata-baba yurdundan didərgin salmış, işgəncə ilə qətlə yetirmiş, nəticədə Azərbaycan vətəndaşlarının hüquqları kobud şəkildə tapdanmışdır.

Hər zaman xalqının yanında olan, onların itirilmiş hüquqlarının müdafiəsinə qalxan Ümummilli Lider "Hər bir ölkənin ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı Birləşmiş Millətlər Təşkilatının sənədlərində təsbit edilmiş beynəlxalq hüququn sarsılmaz prinsipidir",- deyirdi və torpaqlarımızın azad ediləcəyini, soydaşlarımızın hüquqlarının bərpa olunacağını əminliklə ifadə edirdi: "Biz Qarabağ məsələsini həll edəcəyik. Vaxt lazımdır. Heç kim torpaqlarını Azərbaycandan ala bilməz. İşğal olunmuş torpaqlarımız mütləq geri qaytarılacaqdır. Nəyin bahasına olursa olsun".



Ardı Səh. 3

Əvvəli səh. 2

1989-1990-cı illərdə artıq Naxçıvan ermənilər tərəfindən tamamilə blokadaya alınmışdı. Elektrik enerjisi, təbii qaz kəsilmiş, Bakı-Naxçıvan qatarı dayandırıldığından muxtar respublika yanacaqsız, ərzaqsız qalmışdı. Naxçıvan həmçinin informasiya blokadasına alınmış, insanların informasiya almaq hüququ məhdudlaşmışdı.

Heydər Əliyev 90-cı ildə Naxçıvana qayıtmasaydı, bu qədim yurd da Qarabağ kimi işğal ediləcək, naxçıvanlılar isə aclıq-səfalət içərisində məhv olacaqdı. Naxçıvanlılarla birlikdə eyni həyatı paylaşan, soyuq evdə yaşayan, evində və iş otağında çıraq işığında oturan Ulu Öndər şəxsi nüfuzu hesabına Türkiyə və İran İslam Respublikası ilə danışıqlar apararaq insanları ərzaqla təmin edirdi. Onların hüquqlarının bərpa olunması üçün ozamanki ali hakimiyyət qarşısında məsələ qaldırırdı. Beləliklə, ölkə həyatında yaşanan yuxarıda adlarını qeyd etdiyimiz hadisələrin hər birində Ulu Öndəri insanların yanında, onların həm siyasi, həm də mənəvi hüquqlarının müdafiəsində görürük.

# İnsan hüquq və azadlıqları: Ulu Öndərin yaratdığı reallıq




## Ölüm hökmünün ləğvi: Şərqdə ilk Azərbaycanda

1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə Qayıdışı ilə həm 1918-ci ildəki kimi itirilməkdə olan müstəqilliyimiz, həm də həyatı hər an təhlükə ilə üz-üzə qalan xalq xilas oldu. Müstəqil Azərbaycanda yeni hakimiyyətlə ölkə sosial-iqtisadi inkişafa qədəm qoydu, eləcə də qanunun aliliyi təmin edildi, vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə qorunması mühüm prinsipə çevrildi.



Böyük Qayıdışdan sonra ölkəmizdə eyni zamanda humanizm ənənələrinin təməli qoyuldu, 1995-ci ildə əfvetmə və amnistiya institutları yaranmağa başlandı. 22 yanvar 1998-ci il tarixdə Ümummilli Lider Heydər Əliyev "Azərbaycan Respublikasında ölüm hökmünün ləğv edilməsi haqqında" bəyanat verərək ölüm hökmünün ləğv olunduğunu bildirdi, bununla bağlı 3 fevral 1998-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinə qanunvericilik təşəbbüsü qaydasında müraciət etdi və 10 fevral 1998-ci il tarixdə ölüm cəzası ləğv olunaraq ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəz olundu. Şərqdə ilk dəfə məhz ölkəmizdə ölüm cəzasının ləğv edilməsi dünyada böyük əks-səda doğurdu.

Bu siyasətin nəticəsi olaraq Ulu Öndər tərəfindən 1995-2003-cü illərdə 32 əfv fərmanı imzalanmış, 1993-2003-cü illərdə 7 dəfə amnistiya elan olunmuş, nəticədə minlərlə insan azadlığa qovuşmuşdur.

Heydər Əliyev siyasi kursunun davamı olaraq son 20 ildə Prezident İlham Əliyev tərəfindən də 37 əfv sərəncamı imzalanıb, 4 dəfə amnistiya elan edilib.

Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanan "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli Fərman, 1998-ci il 18 iyun tarixində təsdiq edilən "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı", Azərbaycanda azad mətbuatın formalaşması, hər kəsin öz fikrini sərbəst şəkildə ifadə edə bilmək imkanı qazanması məqsədilə "Ölkədə söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" 1998-ci il 6 avqust tarixli Fərman ölkəmizdə insan hüquqları sahəsində ilk strateji sənədlərdir ki, bu gün Azərbaycan vətəndaşları onların bəhrəsini görür.

Sonrakı mərhələdə Prezident İlham Əliyevin 18 iyun 2007-ci il tarixdə imzaladığı "Azərbaycan Respublikasında İnsan hüquqları gününün təsis edilməsi haqqında" Sərəncam, sərəncama əsasən hər il 18 iyunun ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunması, normativ-hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı digər sənədlər yeni mərhələsinin başlanğıc nöqtəsi oldu.

## Üçdə bir hissəsi insan hüquqlarına əsaslanan ilk milli Konstitusiya

Qanunvericilik bazası olmadan sosial, iqtisadi və siyasi islahatların həyata keçirilməsinin mümkün olmadığını nəzərə alan Ümummilli Lider Heydər Əliyev ölkəmizdə hüquqi dövlət quruculuğuna bu bazanın yaradılmasından başladı. Bu isə öz əksini Onun rəhbərliyi ilə hazırlanmış, 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında tapmışdır.

Əsas Qanunumuzda insan hüquq və azadlıqlarının təmini dövlətin ali məqsədi kimi təsbit olunmuşdur. Konstitusiyanın üçdə bir hissəsini bu sahədəki mövcud beynəlxalq-hüquq normalarına əsaslanan müddəalar təşkil edir. Ən əsası isə Əsas Qanunumuzda insan və vətəndaş hüquq və azadlıqlarını qorumaq bütün hakimiyyət orqanlarının vəzifəsi kimi müəyyən edilmiş, onun 48 maddədən ibarət üçüncü fəslinin bütün müddəaları insana, onun ləyaqətinə, hüquqlarına hörmət ruhunda yazılmış, insan hüquq və azadlıqları ən yüksək dəyər kimi təsbit olunmuşdur.

## Konstitusiya Məhkəməsi və Ombudsman təsisatı dövlət və vətəndaş münasibətlərində yeni başlanğıc oldu

Ümummilli Lider yalnız qanunvericilik aktlarının qəbul edilməsinə deyil, onların həyata keçirilməsinə də xüsusi diqqətlə yanaşmış və məhz Onun təşəbbüsü ilə 1998-ci ildə ölkəmizdə ilk dəfə olaraq Konstitusiya Məhkəməsi yaradılmışdır.

2001-ci il 8 dekabr tarixdə isə "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun qəbul edilməsi, Ombudsman təsisatının yaradılması və fəaliyyətə başlaması üçün maddi və hüquqi baza hazırlanmış, 2 iyul 2002-ci il tarixdə Azərbaycanın ilk Ombudsmanı seçilmişdir. Hər iki təsisat hüquq müdafiə mexanizmi olaraq dövlət və vətəndaş münasibətlərində yeni bir başlanğıcın əsasını qoymuşdur.

## Qarabağ Zəfəri: insan hüquqlarının müdafiəsində dünyaya nümunə

Ümummilli Liderimiz bizə bu gün beynəlxalq aləmdə layiqli yer tutan, özünəməxsus dinamik inkişafı olan, hüquqi və demokratik dövlət quruculuğu sahəsində böyük uğurlar əldə edən Azərbaycanı miras qoyub. Dövlətimizin başçısı İlham Əliyev isə bu mirası Heydər Əliyev ideyaları əsasında qoruyur, siyasi və mənəvi varis kimi daha da zənginləşdirir.

Ötən 20 ilin nəticəsi olaraq 2020-2023-ci illərdə düşmən üzərində əldə etdiyimiz Böyük Zəfər çoxəsrlik tariximizin səhifələrinə 270 ildən artıq zamandan sonra yeni bir qəhrəmanlıq salnaməsi yazdı. O Zəfər ki, ölkəmizin ərazi bütövlüyünün və xalqın 30 il əvvəl tapdalanan hüquqlarının bərpası nöqteyi-nəzərindən dünyaya Azərbaycan nümunəsidir. Hüquqlarımız kimi, şərəfimiz də bizim üçün ali olduğundan, bu Zəfər həm də şərəfimizin xilası oldu.

Beləliklə, müstəqilliyi cəmi 33 il olan Azərbaycan insan hüquqları sahəsində yüzilliklər yaşlı müstəqil ölkələrdən heç də geridə qalmır. Belə isə müstəqilliyimizin 50, 100 yaşında daha da inkişaf etmiş dövlətdən və insan hüquqlarından danışacağıq.

***Mətanət Məmmədova***

# Azərbaycan və Türkiyə prezidentləri arasında telefon danışığı olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib. Söhbət zamanı dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin strateji müttəfiqlik zəminində inkişaf etdiyini bir daha vurğulayıblar.

Dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın və Əminə xanım Ərdoğanın Azərbaycanda keçirilmiş COP29 konfransının liderlər sammitində fəal iştirakını məmnuniyyətlə qeyd edərək, genişlərkibli Türkiyə nümayəndə heyətinin konfransın işinə əsaslı töhfələr verdiyini vurğulayıb.

Prezident Rəcəb Tayyib Ərdoğan öz növbəsində COP29-un uğurla keçirilməsi və danışıqlar prosesində əldə olunmuş nəticələr münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırıb. Telefon danışığı əsnasında Cənubi Qafqaz və Yaxın Şərq regionuna aid məsələlərə toxunulub, xüsusilə Suriyada Əsəd rejiminin çökməsindən sonra yaranmış vəziyyət müzakirə olunub. Dövlət başçıları bu münasibətlə Suriya xalqına təbriklərini, Suriya dövlətinin ərazi bütövlüyünə və suverenliyinə dəstəklərini ifadə ediblər.



Prezident İlham Əliyev bundan sonra Türkiyənin yaxın dəstəyi ilə Suriyada sabitlik dövrünün başlayacağına ümidvar olduğunu bildirərək, Azərbaycanın qardaş Türkiyə ilə birlikdə Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasına dəstək verməyə hazır olduğunu qeyd edib. Prezident Rəcəb Tayyib Ərdoğan bütün sahələrdə olduğu kimi Suriya xalqına humanitar yardım və dəstək məsələsində də Azərbaycan və Türkiyənin birgə fəaliyyət göstərəcəyini məmnuniyyətlə qeyd edib. Söhbət əsnasında Azərbaycan və Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# “Rusiya ilə dostluq əlaqələrimiz müxtəlif sahələrdə inkişaf edir”

## Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın Həştərxan vilayətinin qubernatorunu qəbul edib







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatorunun başçılıq etdiyi nümayəndə heyətinin Qubadlı rayonuna səfərinin əhəmiyyətinə toxundu, orada Həştərxan vilayəti tərəfindən hədiyyə olaraq uşaq bağçasının inşasının önəmini vurğuladı, buna görə bir daha minnətdarlığını bildirdi. Prezident İlham Əliyev bunu Azərbaycanla Rusiya arasında dostluq əlaqələrinin, o cümlədən ölkəmizlə Rusiya Federasiyasının Həştərxan vilayəti arasında uğurlu əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev işğaldan azad olunmuş torpaqlarımıza səfəri zamanı İqor Babuşkinin başçılıq etdiyi nümayəndə heyətinin həmin ərazilərdə törədilən dağıntıları, eyni zamanda, keçmiş məcbur köçkünlərin oraya tezliklə köçürülməsinin təmin edilməsi üçün Azərbaycanın həyata keçirdiyi bərpa-quruculuq işlərini öz gözləri ilə görməsinin əhəmiyyətinə toxundu. Azərbaycan Prezidenti bir daha qeyd etdi ki, Həştərxan nümayəndə heyətinin orada gördüyü dağıntılar bütün Qarabağ və Şərqi Zəngəzurda - böyük bir ərazidə də var.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında yenidənqurma və bərpa işlərinə, o cümlədən sosial-infrastrukturun yaradılmasına verilən hər cür dəstək, xüsusilə dost ölkələr tərəfindən göstərilən dəstək çox mühüm əhəmiyyət və böyük rəmzi xarakter daşıyır.

Görüşdə Azərbaycanla Rusiya arasında dostluq əlaqələrinin müxtəlif sahələrdə inkişaf etdiyi, eləcə də ölkəmizin Rusiyanın ayrı-ayrı bölgələri, o cümlədən Həştərxan vilayəti ilə uğurlu əməkdaşlıq həyata keçirdiyi vurğulandı.

Prezident İlham Əliyev bu il Rusiya Prezidentinin Azərbaycana dövlət səfərinin əlaqələrimizin inkişafında çox əlamətdar bir hadisə olduğunu dedi, bu səfərin həm forma, həm də məzmun cəhətdən çox səmərəli və dolğun olduğunu vurğuladı. Dövlətimizin başçısı Rusiya Federasiyası Hökumətinin Sədrinin ölkəmizə səfərinin də əməkdaşlığımızın genişlənməsi işinə töhfə verdiyini qeyd etdi.

Qəbula görə minnətdarlığını bildirən Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin bu gün Qubadlı rayonuna səfərinin həmin əraziləri və orada həyata keçirilən işləri öz gözləri ilə görməsi üçün yaxşı imkan yaratdığını dedi, orada uşaq bağçasının inşasının önəmini qeyd etdi. İqor Babuşkin Azərbaycanla iqtisadi-ticari əməkdaşlığın genişlənməsi üçün konkret tədbirlərin həyata keçirildiyini bildirdi.

Söhbət zamanı nəqliyyat, tranzit yükdaşımalar, kənd təsərrüfatı, ticarət, turizm və humanitar sahələrdə əməkdaşlığın perspektivləri barədə məsələlər müzakirə olundu. Qubernator İqor Babuşkin dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.



# Doha Forumunda Azərbaycanın xarici siyasəti barədə məlumat verilib

Dekabrın 7-8-də Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayev Qətər Dövlətində səfərdə olub. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, nazir müavini Qətərdə keçirilən 22-ci Beynəlxalq Doha Forumunda iştirak edib. Forum dünyamızın üzləşdiyi mühüm problemləri müzakirə etmək üçün qlobal dialoq platformasıdır. Tədbir çərçivəsində F.Rzayev ”Mərkəzi Asiya və Qlobal enerji təhlükəsizliyinin yeni erasi” adlı panel sessiyasında iştirak edib. ”Azərbaycanın xarici siyasəti” mövzusunda çıxış edən nazir müavini ölkəmizin təşəbbüskarı olduğu enerji və nəqliyyat layihələri, onların regionun inkişafına və təhlükəsizliyinə verdiyi töhfələr, dövlətimizin yaşıl enerjiyə keçid və alternativ enerji mənbələrindən istifadə sahələrindəki siyasəti, habelə COP29 çərçivəsində Azərbaycanın sədrliyi tərəfindən görülmüş işlərdən danışıb.

Eyni zamanda, səfər çərçivəsində F.Rzayevin iştirakı ilə Qətər Universiteti nəzdindəki Körfəz Araşdırmalar Mərkəzində ”Azərbaycanın xarici siyasəti” mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə F.Rzayev ölkəmizin yürütdüyü xarici siyasət kursu, regionda baş verən cari proseslər, Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına uğurlu sədrliyi və COP29 çərçivəsində qəbul edilmiş qərarlara dair ünvanlanmış sualları cavablandırıb.

# Heydər Əliyev Mərkəzində "Yenidən doğulmuş gözəllik" adlı sərgi açılıb

***Dekabrın 9-da Heydər Əliyev Mərkəzində nigeriyalı heykəltaraş Dotun Populanın (DotunPopoola) "Yenidən doğulmuş gözəllik" (Reclaimed Beauty) adlı fərdi sərgisinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.***

Sərginin açılış mərasimində çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov deyib ki, Afrika incəsənəti dünyada çox məşhurlaşıb. Bildirilib ki, Heydər Əliyev Mərkəzində Dotun Populanın 30-a yaxın əsəri sərgilənir və bu əsərlər 2025-ci ilin oktyabrınadək Mərkəzdə təqdim olunacaq. "Əminəm ki, Heydər Əliyev Mərkəzinə gələn qonaqlar bu əsərləri çox bəyənəcəklər", - deyə Anar Ələkbərov qeyd edib.

Heydər Əliyev Mərkəzinin direktoru diqqətə çatdırıb ki, bu sərgi Mərkəzdə 2024-cü ildə təşkil olunan çoxsaylı sərgilərin sonuncusudur. O, Mərkəzdə açılan sərgilərdə fəal təmsil olunduqlarına görə iştirakçılara təşəkkürünü bildirib.

Heydər Əliyev Mərkəzində belə bir sərginin açılmasından məmnunluğunu ifadə edən nigeriyalı heykəltaraş Dotun Popula sərgidə heykəltaraşlıq nümunələrinin və digər əsərlərinin nümayiş olunduğunu söyləyib.

"Təkrar emal olunmuş metal hissələrdən düzəltdiyim heykəllər sosial şəbəkələr üçün platforma rolunu oynayır. Mənim bədii yanaşmamın əsasında incəsənətin transformasiyada katalizator rolu oynadığını, sosial-mədəni landşaftın öyrənilməsi üçün bir alət olduğunu, yenidənqurmada vasitəçiyə çevrildiyini, ekoloji deqradasiyaya etiraz forması kimi çıxış etdiyini ifadə edən inamım dayanır", - deyə heykəltaraş bildirib. Sonra tədbir iştirakçıları Mərkəzin foyesində və parkında sərgilənən eksponatlara baxıblar.















Tədbir çərçivəsində Heydər Əliyev Mərkəzində ətraf mühitin qorunmasına çağırış edən MAMA "Ana təbiət" (Mother Nature) beynəlxalq incəsənət layihəsinə və "Öz töhfəni ver!" (Participate!) sərgisinə də baxış keçirilib.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) günlərində fəaliyyətə başlayan MAMA "Ana təbiət" beynəlxalq incəsənət layihəsinin ideya müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevadır. Ekspozisiyada rəqəmsal instalyasiya, rəsm, qrafika və heykəltaraşlıq nümunələri daxil olmaqla, ümumilikdə 120-dən çox əsər təqdim olunur.

Qeyd edək ki, Dotun Populanın sayca 7-ci fərdi sərgisi Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili"nə təsadüf edərək ətraf mühit və iqlim dəyişmələri mövzusu ilə səsləşir. Heykəltaraş əsərlərini ənənəvi materiallardan deyil, sənaye tullantılarına çevrilmiş metal hissələrdən hazırlayır. Həmin metal parçaları isə müxtəlif insanlar tərəfindən ianə edilən materiallardır. Müəllifin sözlərinə görə, sərgilərdə hər bir şəxsin incəsənət üçün bağışladığı töhfəni görməsi bu əsərlərə daha da cəlbedicilik qatır. Dotun Populanın bədii təqdimatında insan, heyvanlar aləmi, nəqliyyat vasitələri və s. vasitəsilə iqlimin qorunmasına çağırış duyulur. Müəllifin yaratdığı əsərlər tullantıya çevrilmiş "heç nə"dən zövq oxşayacaq gözəl sənət nümunələri yarada bilən insan təxəyyülünə olan bir alqışdır.

Xatırladaq ki, Dotun Popula müxtəlif incəsənət sərgilərində, həmçinin 2019-cu ildə Qətərdə keçirilən Metal Səntəti Sərgisində, 2020-ci ildə Hindistanın Qucarat ştatında reallaşan Qlobal İncəsənət Festivalında, 2021-ci ildə Türkiyədə "Birlikdə var olmaq" (Coexistence) və digər sərgilərdə Nigeriyanı təmsil edib. Populanın"Dubay Ekspo 2020" sərgisində Nigeriya pavilyonunun mərkəzi səhnəsində ucaldılmış hibrid heykəltaraşlıq əsəri də ziyarətçilərin marağına səbəb olmuşdu.

# Böyük Qələbəmizin nidası - Zəfər paradı

## Prezident İlham Əliyev: "Demişdim ki, gün gələcək və bu gün işğal altında olan torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi"



Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək işğala son qoydu. Ərazi bütövlüyümüzün bərpa edilməsi, Ermənistan - Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında həll edilməsi üçün Prezident İlham Əliyevin tutduğu qətiyyətli mövqe, ordu quruculuğuna, hərbi-sənaye kompleksinin inkişafına göstərdiyi diqqət və qayğı 44 günlük Vətən müharibəsində öz sözünü demiş oldu. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilsə də, Azərbaycan Prezidenti İlham Əliyev qətiyyətli siyasi iradəsini ortaya qoydu və dövlət başçısının dünyanın aparıcı KİV-lərinə verdiyi 30-a yaxın müsahibəsində ölkəmizin haqq mövqeyini dünyaya çatdırmış oldu. Sülhsevər siyasət yürüdən Azərbaycan münaqişənin sülh, danışıqlar yolu ilə uzun müddət həllinə nail olmağa çalışsa da mümkün olmadı. Ermənistan Azərbaycan Prezidenti İlham Əliyevin sülh çağırışlarına hərbi təxribatlarla cavab verdi. Azərbaycanın 44 gün ərzində apardığı əks-hücum əməliyyatları Ermənistan üçün acı sonluqla yekunlaşdı. XXI əsrin müharibəsini aparan Azərbaycan düşmən üzərində tarixi qələbəsini qazandı, doğma Qarabağımız əsl sahiblərinə qaytarıldı. Bu gün də qalib xalq olaraq ölkəmizə maraq sonsuzdur. Müharibədən sonrakı durum, Azərbaycanın mövqeyi diqqətdə saxlanılır. Bu Azərbaycanın dünya miqyasında olan yüksək imicindən qaynaqlanır. Əlbəttə ki, dövlət başçısı bütün çıxışlarında, müsahibələrində ölkəmizin haqq mövqeyini sərgiləyir və sülhsevər siyasəti dünya ictimaiyyətinə mesaj olaraq çatdırılır. Tarixi ədalət bərpa edilib. "Biz sülh istəyirik, yetərincə müharibə oldu. Biz sabitlik, proqnozlaşdırma və Ermənistan tərəfindən istənilən revanşizm cəhdləri riskinin sıfır səviyyədə olmasını istəyirik" - deyə Prezident bildirmişdir. Bu gün artıq müharibənin başa çatmasından dörd il bir ay ötür.

### "BÜTÜN GÜCÜMÜZÜ SƏFƏRBƏR EDƏRƏK BİR DƏMİR YUMRUQ YARADIB DÜŞMƏNİN BAŞINI ƏZDİK"

Azərbaycan xalqının çoxəsrlik tarixi əlamətdar hadisələrlə zəngindir. Lakin etiraf etməliyik ki, son iki yüz ildə xalqımızın 44 günlük Vətən müharibəsində qazandığı Zəfər qədər möhtəşəm qələbə yoxdur. Qazandığımız bu Zəfərdən dörd il ötməsinə baxmayaraq, hələ də bu Zəfərdən danışılır, müzakirələr və tədqiqatlar aparılır. Ərazi bütövlüyümüz bərpa olynduqdan sonra, 2020-ci il dekabrın 10-da Bakının Azadlıq Meydanında 3000 Azərbaycan əsgəri və zabiti ilə yanaşı, türk əsgər və zabitlərinin iştirakı ilə keçirilmiş ZƏFƏR paradı Azərbaycan xalqının tarixi yaddaşına əbədi yazılan bir hadisədir. Sözsüz ki, ölkəmizin bütün siyasi elitası, yerli və xarici rəsmi qonaqlar, diplomatik korpusun nümayəndələri də paradda iştirak etmişdilər. Həmin gün bütün dünya mediası da ZƏFƏR paradını izləyirdi. Prezident İlham Əliyev Zəfər paradındakı çıxışında Vətən müharibəsi ilə bağlı bir sıra mühüm məsələlərə toxundu. Dövlətimizin başçısı Azərbaycan xalqının bu günü 30 ilə yaxın müddət ərzində gözlədiyini, eyni zamanda, ötən müddətdə Qələbənin əldə olunması üçün Ordunun gücləndirildiyini diqqətə çatdırdı. Bu istiqamətdə həyata keçirilən tədbirlər, vaxtında atılan addımlar qarşıya qoyulan məqsədi - Qələbəni gerçəkləşdirdi. "Bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq", - deyə Prezident bildirmişdir.

### "BU TARİXİ GÜNÜN ŞAHİDİ BİZİK, AZƏRBAYCAN XALQIDIR"

Zəfər paradı Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizin ərazi bütövlüyü uğrunda beynəlxalq arenada apardığı mübarizədə qalibiyyətin təntənəsi idi. Azərbaycan xalqı Zəfər paradını uzun illər idi ki, gözləyirdi. Bu, torpaqların azadlığı, ərazi bütövlüyünün bərpasının paradı idi və minlərlə insanın öz ata-baba yurduna qayıdışının, arzularının gerçəkləşməsi idi. Əlbəttə ki, Zəfər paradı həmin zamana qədər keçirilmiş paradlardan bir çox parametrləri isə seçilirdi. Şuşada qaldırılan dövlət bayrağımızın Azadlıq meydanına Zəfər paradına gətirilməsi tarixi hadisə olaraq, dünyaya nümayiş etdirildi. "Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyinə qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğal altında olan torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik", - bu sözləri Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında çıxışında bildirmişdi: "Hər kəs bilir ki, Ermənistan rəhbərliyi bir il bundan əvvəl demişdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Mən isə demişdim ki, Qarabağ Azərbaycandır! Bu gün bütün dünya görür ki, Qarabağ Azərbaycandır! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan Ordusuna, yaşasın Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı! Yaşasın Azərbaycan əsgəri!"

Zəfər paradında 150-dək hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, hərbi gəmi və katerlər nümayiş etdirilmişdir. Eləcə də, müharibə zamanı erməni ordusundan ələ keçirilmiş qənimətin, hərbi texnikanın bir qismi də nümayiş etdirilmişdi. Paradda Azərbaycan və türk əsgərlərinin çiyin-çiyinə Azadlıq meydanından keçməsi xalqlarımızın tarixində əbədi qalacaq qürurverici hadisədir. Vətən müharibəsində olduğu kimi, parad vaxtı da ölkəmizin bütün ictimai-siyasi qüvvələri bir yumruq kimi həmrəylik nümayiş etdirirdi. Bu həmrəylik xalqımızın əvəzedilməz Liderinə olan inam, etimadın və onun ətrafında sıx birliyinin göstəricisi idi.

### "BU GÜN BİZİM BİRLİYİMİZ DÜNYA ÇAPINDA BİR AMİLDİR"

Parad vaxtı ölkəmizin bütün bölgələri xalq tərəfindən Azərbaycan və Türkiyə bayraqları ilə bəzədilmişdi. ZƏFƏR paradının misilsiz əhəmiyyətə malik olması səbəblərindən biri də Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə qardaş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu paradda iştirak etməsi idi. İki qardaş ölkənin Liderlərinin paradı birgə qəbul etməsi və onların möhtəşəm çıxışları beynəlxalq ictimaiyyətə göndərilmiş çox ciddi xəbərdarlıq mesajları oldu. Bu mənada 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm ZƏFƏRƏ həsr olunmuş parad Türkiyə-Azərbaycan qardaşlığının əbədi rəmzinə çevrildi. Türkiyə-Azərbaycan dostluğu 44 günlük Vətən müharibəsində özünü daha qabarıq şəkildə göstərdi. Bu birliyin nəticəsidir ki, ölkəmiz qısa müddətdə işğalçı ölkəni diz çökdürdü və möhtəşəm Qələbə qazanaraq, 30 illik işğala son qoyuldu. Müharibədən sonra qazandığımız möhtəşəm Zəfərlə bağlı keçirilən Parad isə məğlubedilməz gücümüzün, əbədi birliyimizin, sarsılmaz qardaşlığımızın və dostluğumuzun dünyaya, xüsusilə təcavüzkar Ermənistanı dəstəkləyən qüvvələrə nümayiş etdirilməsi idi. Bu sarsılmaz dostluğu möhtərəm Prezidentimiz İlham Əliyev 2020-ci il dekabrın 10-da Bakıda Azadlıq meydanında keçirilən Zəfər paradında belə ifadə edib: "Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır və sevindirir. Və bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda bütün dünyaya göstəririk." Türk dünyasının iki böyük Lideri - Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan isə bütün çıxışlarında bu dostluğu ən ali səviyyədə qiymətləndirirlər. Möhtərəm Prezidentimiz İlham Əliyevin "Bu gün bizim birliyimiz dünya çapında bir amildir. Türkiyə nə qədər güclü olsa, biz özümüzü o qədər güclü hiss edəcəyik. Türkiyənin uğurları bizi çox sevindirir. Əminəm ki, bundan sonra da bizim qardaşlıq əlaqələrimiz yüksələn xətlə inkişaf edəcəkdir!" və ya Prezident Rəcəb Tayyib Ərdoğanın "Türkiyə olaraq Azərbaycan ilə münasibətlərimizdə özümüzə hər zaman Böyük Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik..." dillər əzbəri olmuş bu fikirlər artıq aforizmə çevrilib.

Artıq Zəfər qazanmış Azərbaycan tarixinin yeni dövrünü yaşayır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış və milli qürurumuzun təntənəsinə çevrilmiş tarixi Zəfər sayəsində hazırda Qarabağ və Şərqi Zəngəzurda yeni inkişaf dövrünü yaşayır. Bu gün yeni reallıqlar mövcuddur, Azərbaycanın "Dəmir Yumruğu"nun yaratdığı yeni reallıqlarla hər kəs hesablaşmalıdır. Dünya dövlətləri ilə iqtisadi, siyasi sferada uğurlu əməkdaşlıqların qurulması və Azərbaycanın dünya miqyasında tanıdılmasında dövlət başçısının yürütdüyü siyasət öz bəhrəsini verir. Qələbədən sonra Azərbaycanın yaratdığı yeni reallıqlar Prezident İlham Əliyev tərəfindən yürüdülən uzaqgörən, qətiyyətli və cəsarətli diplomatik siyasətin təsdiqidir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Böyük Azərbaycanın yaranması bəşəriyyətin xilası olacaq

Dünyanın elm zəkaları, işıqlı insanları, nüfuzlu araşdırmaçıları təsdiq edirlər ki, dünyanın elm, mədəniyyət mərkəzlərindən biri də Azərbaycandır. Böyük mütəfəkkirlərin, dahi şəxsiyyətlərin yetişdirdiyi bu torpaq dünyada sülhə və təhlükəsizliyə də böyük töhfələr verib. Tarixin elə bir dövrü olmayıb ki, o zaman Azərbaycanla hesablaşan, xalqının tələblərini yerinə yetirən dövlət və ya hansısa mərkəz olmasını 5 min illik dövlətçilik tarixinə malik Azərbaycan ərazisində ilk dövlət qurumları hələ eramızdan əvvəl IV minilliyin sonu - III minilliyin əvvəllərindən başlayaraq Urmiya hövzəsində yaranmışdı. Burada meydana gəlmiş ən qədim Azərbaycan dövlətləri bütün regionun hərbi-siyasi tarixində mühüm rol oynayırdılar. Həmin dövrdə Azərbaycanda Dəclə və Fərat vadilərində yerləşən və dünya tarixində dərin iz qoymuş qədim Şumer, Akkard və Aşşur (Assuriya) dövlətləri, habelə, Kiçik Asiyadakı Het dövləti arasında sıx qarşılıqlı əlaqələr formalaşmışdır. Qədim tarixə malik və şimaldan - Baş Qafqaz dağları, Dərbənd, qərbdən - Göyçə gölü hövzəsi də daxil olmaqla Alagöz dağ silsiləsi və Şərqi Anadolu, şərqdən - Xəzər dənizi, cənubdan isə Urmiyyə gölü və Sultaniyyə-Zəncan-Həmədan hüdudları ilə əhatə olunan Azərbaycan dünya sivilizasiyasına özünəməxsus adət-ənənəsini, mədəniyyətini, dövlətçilik prinsiplərini təqdim edə bilib. Bu ərazilərdə 300-400 min il əvvəl ilk insanın Azıx mağarasında tapılması Azərbaycanın qədim insan məskəninə malik olan dövlət olduğunu göstərir. Bu ərazilərdə ən qədim dövlətlər - Manna, İskit şahlığı, Atropotena, Qafqaz Albaniyası, Salarilər, Rəvvadilər, Səfəvilər, Şirvanşahlar və bu kimi digər bütün dünyaya hökm etməyə qadir dövlətlərin olması bugünkü Azərbaycanın qədim dövlətçilik ənənələrinə malik dövlət olduğunu təsdiqləyir. Tarixdə Azərbaycanın tələffüzü müxtəlif formalarda qeyd olunmuşdur.

## 5 min illik dövlətçiliyi olan Azərbaycan

Hazırda müstəqil Azərbaycan dövləti 5 min illik dövlətçiliyi yaşadan dövlətdir. Həm də elə bir formada dövlətçiliyi yaşadır ki, dünya əldə olunan uğurlarını, zəfərlərini heyranlıqla izləyir. 44 günlük Vətən müharibəsində 30 illik erməni işğalına son qoyan Azərbaycan dövləti dünyaya sübut etdi ki, böyük imperiyalar, qüdrətli dövlətlər məskəni olan bu ərazinin varisləri ulu əcdadlarının qurduğu dövləti, miras qoyduqları ənənələrini yaşatmağı bacarırlar. Hazırda Azərbaycan BMT, Avropa Şurası, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, GUAM, Şərq Tərəfdaşlığı, Türk Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, MAQATE, Kimyəvi Silahların Qadağan edilməsi Təşkilatı və NATO-nun Sülh Naminə Tərəfdaşlıq (SNT) proqramının üzvüdür. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, Qoşulmama Hərəkatına sədrlik etməsi, COP29 konfransına ev sahibliyi etməsi və digər bu kimi siyasi, iqtisadi, beynəlxalq uğurları Azərbaycanın dünyanın həm də aparıcı dövlətlərindən olduğunu təsdiqləyir. Əminliklə demək olar ki, çox qısa vaxt da Böyük Azərbaycan dövləti tarixi torpaqlarına yenidən sahib çıxacaq. Hər bir azərbaycanlıda o ümid var ki, Cənubi Azərbaycanla Şimali Azərbaycan və digər sərhəd ərazilərdəki torpaqlar yenidən birləşəcək və böyük, qüdrətli Azərbaycan qurulacaq. Baxmayaraq ki, fars-molla rejimi bütün mümkün vasitələrdən istifadə etməklə güneyli soydaşlarımızın müstəqillik mübarizəsini boğmağa çalışırlar. Lakin qaniçən rejimin işgəncə maşını uğursuzluğa düçar olacaq. Çünki görülən sərt tədbirlərə, həbslərə, işgəncələrə baxmayaraq Təbrizdə, Tehranda, Ərdəbildə, Xoyda, Urmiyada və digər tarixi Azərbaycan torpaqlarında etirazlar səngimir. Yeni Səttarxan, Pişəvəri hərəkatları yeni formada, həm də uğurlu nəticələrin əldə olunması ilə davam edir. Hər gün həbslər, hər gün edamlar olsa da, mübarizə davam edir. Qətiyyətlə bir daha vurğulamaq lazımdır ki, güneyli soydaşlarımızın başladığı müstəqil dövlət quruculuğu yarımçıq qalmayacaq. Azərbaycanın Qarabağda separatçıları və terrorçu hərbi birləşmələri məhv edib, suverenliyini bərpa etdikdən sonra güneyli soydaşlarımızın müstəqil dövlətçiliyini bərpa etmək mübarizələri daha qətiyyətli xarakter alıb. Onu xatırlatmaq lazımdır ki, molla rejimi Azərbaycan müstəqilliyini əldə edib, demokratik, azad dövlət olaraq inkişafını davam etdirdiyi zamandan dövlətimizə qarşı düşmənçilik mövqeyində dayanıb. Hər zaman terrorçu qardaşı Ermənistana hərbi, siyasi, maliyyə dəstəyi göstərməklə Azərbaycanın torpaqlarının işğal edilməsinə və ərazilərdəki, yeraltı, yer üstü sərvətlərin talan edilməsinə dəstək göstərib. Hətta 44 günlük Vətən Müharibəsində Azərbaycan öz torpaqlarını azad etmək üçün əməliyyatlara başlayanda ermənilərə qardaşlıq yaradılmalarını əsirgəmədilər. Lakin bütün məkrli qüvvələr cəsur və müzəffər ordumuzun ayaqları altında məhv edildilər. Ərazilərimiz işğaldan azad edildi və torpaq bütövlüyümüz bərpa olundu. Yenə də molla rejimi iyrənc fəaliyyətindən və əməllərindən əl çəkmədi. Kifayət qədər yaşı, başı, hətta başında yekə bir çalması olan fars-molla rejiminin baş mollası Xomneyi ”Zəngəzur bizim qırmızı xəttimizdir” deyə cəfəng fikir irəli sürmüşdür. Digər əbalı və başı çalmalı mollalar da ermənilərin himayəçisi rolunda çıxış edirlər. Halbuki fars-molla rejimi özünü islam respublikası elan edib. Bu respublikanın banisi Xomeneyidən qalma ideologiyaya görə (bu, həm də xomeneyizm ideologiyası adlanır), müsəlmanın müsəlmandan yaxın dostu yoxdur. Amma molla rejiminin indiki və əvvəlki prezidentlərinin apardıqları siyasətə nəzər yetirdikdə, bu ideologiyanın ayaqlar altında tapdalandığını görmək olar. Hazırkı prezident İbrahim Rəisi və əvvəlki terror başçıları özlərini Xomeneyinin davamçıları kimi cəmiyyətlərinə sırımağa çalıblar. Amma onlar Xomeneyizm ideologiyasının birinci prinsipini - Azərbaycanın torpaqlarını işğal edib, 1 milyondan çox insanı ev-eşiyindən didərgin salmış Ermənistanla geniş əməkdaşlıq münasibətləri qurmaqla pozublar. Ona görə də bu rejimi islam respublikası adlandırmaq ədalətsizlikdir. Belə demək olar ki, müsəlmanların haqqına girmiş olunur. Onlar terrorçu dövlətdilər və belə də adlandırılsa daha yaxşı olar. Həm də ona görə ki, bu rejim dünya ölkələrində baş verən terror hadisələrin təşkilatçısı və iştirakçısı olur. Hər il 100 milyardlarla dollarını terrora hadisələrinin törədilməsinə xərcləyir. Halbuki öz diliənci günündə yaşayır, əziyyətli, məşəqqətli ömür sürürlər. Xoyda baş verən zəlzələnin ağır nəticələrini hələ də azərbaycanlılar çəkməkdədirlər.

## Dünya mətbuatı Güneydə Azərbaycan dövlətinin qurulacağından yazır

Baş verənlərə əsaslanaraq demək olar ki, yaxın vaxtlarda Təbrizdə Güney Azərbaycanın bayrağı qaldırılacaq. Dünyaca tanınmış, nüfuzlu qəzet və jurnallar, televiziyaları da o fikirdədirlər ki, Güney Azərbaycanında gedən müstəqillik mübarizəsi qələbə ilə başa çatacaq. Bir qədər əvvəl ”The Jewish Press” nəşri qeyd etmişdir ki, fars- molla rejiminin nəzarət etdiyi torpaqlarda Güney Azərbaycan dövlətinin qurulması reallığa çevrilir: ”Çox qısa müddət də etirazçılar Şimali Azərbaycanla birliyə doğru irəliləyəcək, Avropa Şurasına qoşulacaq, Qərb dəyərlərini qəbul edəcək, eyni zamanda bölgədə sülh və sabitliyə öz töhfəsini verəcəklər”. Fars-molla rejimi güneyli soydaşlarımızın bütün hüquq və azadlıqlarını pozmaqla, onların milli mübarizələrinə əngəllər yaratmağa çalışırlar. Torpaqlarda 50 milyonluq güneylilərin bir dənə də olsun azərbaycandilli məktəbi olmadığı hal da 50-60 minlik ermənilərin 37 məktəbi, universiteti mövcuddur. Bu ayrı seçkilik təbi ki, fars-molla rejiminə olan qardaşlıq münasibətindən irəli gəlir. Halbuki, hər bir xalqın və fərdin öz ana dilindən istifadə hüququ BMT Nizamnaməsində, İnsan Hüquqları haqqında Ümumi Bəyannamədə, BMT-nin Mülki və Siyasi Hüquqlar haqqında Paktında, Müstəmləkə ölkələrinə və xalqlarına müstəqillik verilməsi haqqında 1960-cı il Bəyannaməsində, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyada, Helsinki Yekun Aktında, habelə BMT Beynəlxalq Məhkəməsinin bir sıra qərar və məsləhət xarakterli rəylərində öz əksini tapıb. Dəfələrlə bu kimi ayrıseçkiliyə görə beynəlxalq təşkilatlar fars - molla rejiminə xəbərdarlıqlar edib, qüsurların aradan qaldırılmasını məsləhət bilsələr də, nəticəsi olmayıb. Əksinə, beynəlxalq təzyiqlər gücləndikcə, Azərbaycan dilli nəşrlər, vərəqələr, braşuralar da sıradan çıxarılır. Güneydəki milli fədailərinin açıqlamalarına, eləcə də Siyasi Məhbuslarının Hüquqlarını Müdafiə Assosiasiyasının yaydığı hesabatlarına istinadən qeyd olunur ki, bu torpaqlar da türk dilində nəşr edilən ”Oyanış”, ”Səttarxan”, ”Ulus”, ”Nəsimi”, ”Ölük”, ”Kimlik”, ”Yoldaş”, ”Aydın Gələcək”, ”Qıpçaq”, ”Yaşıl yol”, ”Yurd”, ”Səhər”, ”Açıq söz”, ”Sayan”, ”Bulud”, ”Hələc”, ”Yarpaq”, ”Çənlibel”, ”İsəlay” və digər nəşrlər, jurnallar basqınlara məruz qalıb, əməkdaşlar həbs olunaraq zindanlara atılıb, nəhayətdə məhkəmələrin qərarı olmadan və heç bir səbəb göstərilmədən bağlanıb.



## Fars-molla rejiminin siyasəti bəşəriyyətin varlığı təhlükədir

Fars- molla rejimi Təbrizdə Azərbaycan bayrağının dalğalanmasının qarşısını almaq üçün hər cür zorakı metodlardan istifadə edir. Azərbaycanlılar küçədən oğurlanıb zindanlara atılır, şərlənib həbs edilir, işdən çıxarılır, adi hüquq və azadlıqları belə pozulur. Yeni fars-molla rejiminin azərbaycanlılara qarşı repressiya maşını gecə-gündüz dayanmadan işləyir. Lakin azadlığa gedən yolu heç bir qüvvə, o cümlədən molla rejimi dayandıra bilməyəcək. Artıq bütün dünya azərbaycanlıları, xüsusilə də Bakıdakı ziyalılar, ictimaiyyət nümayəndələri güneyli soydaşlarımıza öz dəstəyini göstərməkdədirlər. Azərbaycan Prezidenti, Yenilməz Sərkərdə, Qarabağı erməni terrorçularından təmizləməklə müsəlman-türk dünyasına qürur yaşadan Cənab İlham Əliyevin güneylilərə dəstək ifadə etməsi Güney Azərbaycanın da mübarizə əhaval-ruhiyyəsini daha da genişləndirib. Xatırlatmaq lazımdır ki, Azərbaycan Prezidenti İlham Əliyev ADA Universitetində ”Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat” mövzusunda keçirilən beynəlxalq konfransda demişdir: ”Ümid edirəm ki, İran hökumətinin ermənipərəst hərəkətləri çox kövrək sülhə xələl gətirməyəcək. Hesab edirəm ki, azərbaycanlıların hisslərini və bizim maraqlarımızı nəzərə almağın zəruriliyi barədə daha çox anlayış nümayiş olunacaq. Mən İranın əvvəlki üç prezidenti ilə - Prezident Hatəmi, Prezident Əhmədinejad və Prezident Ruhani ilə işləmişəm. Bütün bu illər ərzində heç vaxt indiki vəziyyətimizə oxşar bir şey olmayıb. Heç vaxt Azərbaycana qarşı nifrət və təhdid dolu sözlər işlədilməyib, sərhədimizdə heç vaxt hərbi təlim keçirilməyib, ancaq bir neçə ay ərzində iki hərbi təlim keçirilib. Deməli, bu, o deməkdir ki, bu vəziyyəti yaradan biz deyilik. Biz bu vəziyyətin daha tez bitməsini istəyirik. Biz bütün qonşularımızla sülh və dostluq münasibətləri istəyirik”.

## Bəşər Əsəd rejiminin süqutu fars-molla rejiminin də bu bölgədə mövcudluğunun alt-üst olması deməkdir

Fars-molla rejiminin iyrənc siyasəti bəşəriyyətin varlığına təhlükə hesab olunur. Yeni molla rejimi öz xalqı üçün, əsasən də güneylilər üçün nə qədər təhlükədirsə, bir o qədər də dünya üçün təhlükə mənbəyidir. Çünki bu rejim Ermənistan kimi terroru dövlət siyasətinə çevirib. Molla rejimi hər il terrorizmin maliyyələşməsinə 100 milyardlarla dollar vəsait ayırır. Suriyada, Əfqanıstanda, İraqda, Nigerdə, Afrikada və digər yerlərdə tökülən qanlarda fars-molla rejiminin əli və rolu var. Suriyada Bəşər Əsəd rejiminin süqutu fars-molla rejiminin də bu bölgədə mövcudluğunun alt-üst olması deməkdir. Çünki molla rejimi Suriyada insanların qətlə yetirilməsi, terrorizmin inkişaf etdirilməsində Bəşər Əsəd rejiminə hər cür dəstəyi göstərib. Bundan sonra suriyalılar rahat nəfəs alacaq və özlərinin sakit həyatlarını qurmağa çalışacaqlar. Həm də bundan sonra suriyalılar, hakimiyyətə gələn insanlar fars-molla rejiminin bu bölgəyə daxil olmasına terror yuvası qapadılmış olacaq. Araşdırmalar əsasında təsdiq olunur ki, bu gün dünyada baş verən dövlətlərarası və ölkələr daxilindəki toqquşmaların əksəriyyətində fars-molla rejimi iştirak edir. Rəqəmlərə istinadən demək olar ki, bu gün dünyada yaşanan aktiv 88 münaqişə bölgəsində fars- molla rejimi iştirak edir. Müəyyən hallarda puluna ötürür, silah verir və özü kənardan dayanıb təlimatlar verir. Nəticədə qanlar tökülür, qırğınlar baş verir, şəhər və qəsəbələr, kəndlər xarabazarlığa çevrilir. Qəzzada müsəlmanların qanının tökülməsində birbaşa fars molla rejiminin əli var. İslam sülh və əmin-amanlıq dinidir. İslam bəşəri din olaraq insanların rahat və təhlükəsiz, qayğısı birgə yaşayışını məsləhət görür.

**İLHAM ƏLİYEV**

# “Hər bir azərbaycanlının ürəyində Heydər Əliyev heykəli var”



**“Ümummilli Lider Heydər Əliyev Azərbaycan tarixində əvəzsiz rola malikdir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Elşad Həsənov deyib.O bildirib ki, Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olub: ”Bu dövrdə çox böyük tarixi işlər görüb, yeni rayon, şəhərlər salıb, Azərbaycan inkişaf etmiş sənaye respublikasına çevrilib. Məhz bu, Heydər Əliyevin o dövrdəki fəaliyyəti ilə bağlıdır. Heydər Əliyevin apardığı işləri görən SSRİ rəhbərliyi onu irəli çəkərək SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edib. 1982-ci ildə onu siyasi büroya apardılar, həmin büronun sədri seçildi. Orada da SSRİ-nin taleyüklü məsələlərində iştirak etdi.**

Nəqliyyat, sənaye sahələri də Heydər Əliyevin xülasəsində oldu. Ancaq sonradan SSRİ rəhbərliyində dəyişiklik oldu. Mixail Qorbaçov hakimiyyətə gəldi. Heydər Əliyevin nüfuzundan, işgüzarlığından qısqanaraq ona qarşı qarayaxma kampaniyaları təşkil etdirdi. Onların bu yarıtmaz siyasətinə etiraz olaraq 1987-ci ilin oktyabrında istefa verdi.Heydər Əliyev sonra Moskvada yaşadı. 1990-cı ilin yanvar hadisələri törədiləndən sonra Moskvada Azərbaycan nümayəndəliyinə gələrək SSRİ rəhbərliyinə qarşı sərt bəyanatla çıxış etdi. Azərbaycan xalqına qanlı qətliam törətmiş adamların ciddi cəzalanmasını tələb etdi.

Dağlıq Qarabağdakı proseslərə SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz olaraq 1991-ci ilin iyununda da Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin sıralarını tərk etdi. 1990-cı ildə Bakıya qayıdıb. Burada da o zamankı hakimiyyət onu dinc qoymadı, doğma Naxçıvana getdi. Qısa müddətdə xalqın böyük dəstəyi ilə Azərbaycan SSRİ Ali Sovetinə deputat seçildi, həm də Naxçıvan Muxtar Ali Sovetinin deputatı oldu. Eyni zamanda 1991-ci ilin sentyabrında Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin sədri seçildi. O zamankı qanunvericiliyə görə Azərbaycan Respublikası Ali Sovetinin sədrinin müavini seçildi. Heydər Əliyev Azərbaycanda gedən prosesləri də izləyirdi. Bilirdi ki, belə qarışıq dövrdə Azərbaycana inkişaf üçün yeni siyasi fəaliyyət növü lazımdır. Onun rəhbərliyi ilə 1992-ci ilin noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası seçildi. Heydər Əliyev də həmin partiyanın sədri seçildi.

YAP təkcə Naxçıvanda yox, Respublikanın hər yerində böyük işlər apardı. 1992-ci ildə Müsavat rəhbərliyi dövləti idarə edə bilmirdi. Həm cəbhədə vəziyyət gərgin idi, həm də xalq pis vəziyyətdə yaşayırdı. Buna səbəb də Gəncə qiyamı baş verdi. Belə ağır dövrdə o zamankı Azərbaycan rəhbərliyi Heydər Əliyevə xahiş etdilər ki, gəlib bu məsələlərə rəhbərlik etsin. Xalqın təkidli tələbi ilə Heydər Əliyev Bakıya gəldi. 1993-cü ildə Ali Sovetin sədri seçildi. İsa Qəmbər iştefa verdi. Artıq Azərbaycan Prezidenti Əbülfəz Elçibəy də qaçmışdı. Ona görə də iyunun 24-də Heydər Əliyev Prezident səlahiyyətlərini icra etməyə başladı. 1993-cü ilin Prezident seçkilərində də böyük səs çoxluğu ilə qələbə qazandı. Hakimiyyətinin ikinci ili ərəfəsində də Heydər Əliyev tarixi işlər gördü. Cəbhədə atəşkəsə nail oldu. Azərbaycanı bu bəladan qurtarmaq üçün ən böyük iqtisadi layihə olan ”Əsrin müqaviləsi”ni bağladı. Azərbaycan iqtisadiyyatını inkişaf etdirdi, eyni zamanda Azərbaycanda milli ordunun yaradılmasında böyük səy göstərdi. Neft kapitalından əldə olunan gəlirləri insan kapitalına çevirdi. Eyni zamanda ordunu gücləndirdi. 2003-cü ildə Prezident seçkilərinə namizədliyini verdi. Səhhəti ilə əlaqədar namizədliyini geri götürdü, İlham Əliyevi irəli sürdü.

Vəsiyyət edərək xalqa bildirdi ki, Azərbaycanın gələcəyi İlham Əliyevlə bağlıdır: ”Çünki mənim həyata keçirə bilmədiyim məsələləri İlham Əliyev həyata keçirəcək”. Qədirbilən Azərbaycan xalqı da onun dediklərinə böyük dəstək oldu. Xalq İlham Əliyevi Prezident seçdi. Həmin vaxt xəstə olan Heydər Əliyev 12 dekabr tarixində dünyasını dəyişdi. Dekabrın 15-də dəfn edildi”.”Ümummilli Liderin Azərbaycanda fəaliyyəti böyükdür. Bu gün torpaqlarımızın erməni tapdağından azad edilməsi Heydər Əliyevin qoyduğu siyasi xəttin nəticəsidir. Heydər Əliyevin yaratdığı iqtisadi inkişafın nəticəsidir. Ona görə də, xalqımız həmişə onu ehtiramla anır. Hər bir azərbaycanlının ürəyində Heydər Əliyev heykəli var. Xalq var olduqca da Heydər Əliyev var olacaq” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***



Elçin Bayramlı

# Qlobal jandarmın təcavüz strategiyası

## Və ya "Sem dayı"nın dünya ölkələrində "parçala hökm et" siyasəti

Hazırda Vaşinqtonun dünyada yeritdiyi aqressiv hərbi siyasət Amerikanın dünyada 1-ci güc ölkəsi kimi daha uzun müddətli qalmasına xidmət edir. Dünyanın müxtəlif bölgələrinə son illər ABŞ-ın müdaxiləsi böhranlardan və müharibələrdən başqa heç nə vermədi. Dünya jandarmı vəzifəsinə özbaşına yiyələnmiş təcavüzkar dövlət çökməkdə olan siyasi və hərbi gücünü, iqtisadiyyatını xilas etmək üçün dünyada durmadan xaos və müharibə ssenariləri hazırlayıb həyata keçirir.

SSRİ dağıldıqdan sonra dünyada siyasi vəziyyət dəyişdi. 1996-cı ildən Amerika xarici siyasəti açıq imperial xarakter aldı və dünyanı öz nəzarəti altında saxlamağa çalışdı. Həmin vaxtdan özünün hərbi və enerji potensialına görə Rusiya Amerikaya güclü rəqib sayılan ölkəyə, yeni müstəqil dövlətlər isə əksinə, strateji tərəfdaşlara çevrildilər.

Ən güclü rəqiblərini (Rusiya və Çin) zəiflətmək üçün dünya ölkələrində müharibələr törətmək strategiyasına keçildi. Amerikanın yeni siyasəti, məşhur politoloq Zbiqnev Bjezinskinin yazdığı kimi, Rusiyanı kənarlaşdıraraq onun Avrasiyada bütün hərəkət imkanından məhrum etmək niyyəti daşıyır.

Bunun üçün Vaşiqton bir tərəfdən Avropa və Rusiya arasında yaxınlaşmağa mane olmaq üçün Moskva ilə müəyyən gərginlik səviyyəsi saxlamağa, digər tərəfdən keçmiş SSRİ respublikalarının Rusiyaya qarşı düşmən mövqeyə keçməsinə çalışır.

Getdikcə güclənməkdə olan Rusiyanı zəiflətmək üçün amerikan beyin mərkəzləri yeni ”rəngli inqilablar” nəzəriyyəsini hazırladılar. Məqsəd isə Rusiyanı regionda izolyasiya etməkdən və qonşu ölkələrlə belə normal münasibətlərinə imkan verməməkdən ibarətdir. Bunun üçün onlar dolayısı ilə yeni müstəqillik qazanmış respublikalarda ”demokratik” inqilabların həyata keçirilməsinə yardım edirlər. Sonra isə onların Qərb dünyasına ”inteqrasiyasına” köməklik edərək konkret bu ölkələr üzərində öz təsir imkanlarını gücləndirirlər.

Bu, əslində hələ 1940-cı illərdə tarixçi-diplomat Corc Kenan tərəfindən hazırlanmış və SSRİ-yə qarşı yönəldilmiş köhnə ”containment” (şaxələnməyə imkan verməmək) siyasətinin yeni formasıdır. Məqsəd həmişəki kimi, Rusiyanı izolyasiyada saxlamaqdır. Bu siyasət regionda qeyri-sabitliyi artırır və Rusiyanın sərt addımlar atmasına gətirib çıxarır. Ukraynada baş verənlər bunun kulminasiyası idi.

1940-cı illərdə Amerika iqtisadiyyatı dünya istehsalının yarısını təşkil edirdi və o zaman dünyanın Amerikaya ehtiyacı var idi. Bu gün isə onun iqtisadiyyatı xarici investisiya və dünyanı bürümüş boş kağızın- dolların hesabına davam gətirir.

Dünya əhalisinin 5 fazini təşkil edən amerikalılar dünyanın yüksək dəyərli sərvətlərinin 40 faizini istehlak edirlər. Başqa sözlə desək, indi dünya əhalisi işləyib amerikalıları saxlamaqla məşğuldur. 36 trilyonluq astronomik borcu ilə bu dövlət faktiki olaraq müflisdir. Sadəcə borclanmanı artıraraq kağız üzərində defoltu uzadırlar. Nəyin bahasına olursa-olsun dolların üstünlüyünü saxlamaq ABŞ-ın marağında olan əsas məsələlərdəndir. Amerika dünyaya arxasında əmtəə dayanmayan kağız (dollar) ixrac edib, əvəzində mal idxal edir. Bütün siyasət maliyyə-birja əməliyyatlarının üzərində qurulub. Lakin BRİCS, ŞƏT kimi beynəlxalq birliklər dollarsız hesablaşma razılaşmaları üzərindən artıq bu sistemin dağılmasına start veriblər.

Əslində, Birləşmiş Ştatlar dərk edir ki, onların dünyaya, xüsusilə də istehsal qütbləri olan Çin, Rusiya, Avropa və Yaponiyaya ehtiyacları var. Bu vəziyyətdən çıxış yolu kimi, Amerika strategiya sahəsindəki mütəxəssisləri əsas strateji xətt kimi dünyanın enerji sərvətlərinin siyasi nəzarət altına alınması siyasətini təklif edirlər.

Burada məqsəd heç də Amerikanın enerji təhlükəsizliyini təmin etmək deyil, onun Qərbi Avropa, Çin və Yaponiya üzərində təsirinin əsas elementini qoruyub saxlamaqdır. Əslində, ABŞ-a neftin yarısını ixrac edənlər Amerika ölkələridir. Əgər buraya ABŞ-ın özünün də neft istehsal etdiyini əlavə etsək, onda məlum olur ki, bu ölkənin neft istehlakının 70 faizi Amerika qitəsindən gəlir.

İran körfəzi ölkələri əsas neft ehtiyatına malik olsalar da, Amerikaya neft ixracında heç də üstün rol oynamırlar. Avropa, Çin və Yaponiya ilə müqayisədə Birləşmiş Ştatlar bu regiondan qat-qat az neft ixrac edir. Ancaq, Orta Şərqin və Xəzər dənizinin enerji mənbələrinə nəzarət etməyə çalışan Vaşinqton bununla Avropa və Uzaq Şərq üzərində güclü təsir imkanlarını əldən buraxmaq istəmir.

Bu da hər şeydən öncə Amerika dövlətinin dünyada dolların birinciliyini saxlamağa imkan verir və onun iqtisadiyyatının ehtiyaclarını ödəyir. Siyasi və strateji baxımdan, Amerikanın bugünkü durumu heç də yaxşı deyil. Əslində, çox pisdir demək daha doğru olardı. Bu səbəbdən ABŞ öz həyat səviyyəsinə zəruri olan dünya hegemoniyasını təmin etməyə çalışır. Bu məqsədlə hazırlanmış qlobal strategiyanın hədəfi zəif rəqib (üçüncü dünya ölkələri) seçməkdən ibarətdir. Bunlar Amerikanın hərbi gücünü nümayiş etdirməkdə bir növ səhnə rolunu oynayırlar.

Bu, eyni zamanda ABŞ-ın ərəb dünyasında nüfuzuna zərər gətirir və terrorizmə yeni vüsət verir ki, bəzi islami terror təşkilatları da bundan istifadə edir. Yaxın Şərqdə əksər terror təkilatları ABŞ-dan idarə olunur. Rusiya isə Çinlə bütün sahələrdə münasibətlərə xüsusi diqqət yetirir ki, bu da ABŞ-in dünyada tutduğu yerinin zəifləməsinə gətirib çıxaracaq.

Beləliklə, Amerikanın dünya hegemonluğunu saxlanmağa yönəlmiş xarici siyasəti çox mürəkkəb xarakter daşıyır və çoxlu çatışmazlıqlarla müşahidə olunur. Bu siyasət MDB məkanında qütbləşməni daha da kəskinləşdirir. Ukrayna, Qırğıstan, Ermənistan və Gürcüstanda gizli ABŞ-Rusiya qarşıdurması bu ölkələrə fəlakət gətirdi.

Azərbaycana gəldikdə, ölkəmizin heç kimdən iqtisadi asılığı yoxdur. Həm Rusiya, həm ABŞ, Həm Çin, həm də Avropa ilə münasibətlər sivil müstəvidə və qarşılıqlı maraqlar əsasında qurulur. Həm də Azərbaycanda xarici təsirlər minimum səviyyədə olduğundan burada digər ölkələrdə sınaqdan çıxarılan strategiyalar səmərə vermir.

# Pavel Klaçkov: Cənubi Qafqazda vəziyyət dəyişəcək, Ermənistan təklənəcək

***Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin filial direktoru, politoloq Pavel Klaçkov "Moskva-Baku" portalına müsahibəsində Prezident Co Bayden və ABŞ-ın hazırkı administrasiyasının gedişi və ABŞ-da Donald Trampın hakimiyyətə gəlməsi ərəfəsində İrəvan və Bakının addımlarını şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

*- Pavel Vladimiroviç, bu günlərdə Amerikanın Cənubi Qafqaz siyasəti ilə bağlı bir neçə hadisə baş verdi. Belə ki, Pentaqonun rəhbəri Ermənistanın müdafiə nazirini qəbul edib və əmin edib ki, Vaşinqton Ermənistan ordusunda islahatların aparılmasında İrəvanla əməkdaşlığı davam etdirəcək. Bunun fonunda Ermənistan Respublikasının baş naziri bəyan edib ki, ölkə ilə KTMT arasında münasibətlər geri dönməz həddə çatıb. O da maraqlıdır ki, həmin Paşinyan sözün əsl mənasında bu bəyanatdan bir neçə gün sonra ABŞ-da yanvarın 20-də hakimiyyətə gələcək Trampla Parisdə ayaq üstə danışıb. Nə baş verir?*

- Ermənistan çoxdan Rusiya ilə müttəfiqlikdən getdikcə daha da uzaqlaşan qərbyönlü yoldadır. Bu relslərlə hərəkət edən lokomotiv sürətini artırır, respublikanı müttəfiqindən getdikcə naməlum və gözlənilməz məsafəyə, respublikanın özü üçün çox da xoş olmayan macəralara aparır. Bu gün İrəvanda hesab edirlər ki, Qərb Rusiyanı Ermənistan üçün tam əvəz edəcək. Ermənistan rəsmiləri ABŞ və Aİ ilə strateji sənədlər imzalayır, Pentaqonda görüşlər keçirir, Zelenski və Belarus müxalifətinin nümayəndələri ilə ara-sıra görüşləri xatırlayırıq.



Amma Ermənistanın müdafiə nazirinin ora göndərildiyi, daha doğrusu, çağırıldığı ABŞ-da bu yaxınlarda apardığı üç günlük danışıqları yerli xalqın uzaq müstəmləkəçi dövlətin "ağ ağasına" münasibəti kimi xarakterizə etmək olar. Ağ dərili Anglo-Sakson cənabları, bir neçə əsr əvvəl olduğu kimi, hansısa torpağa düşərək yerli krallarla "münasibətlərini" qurmağa başlayanda olduğu kimi. Onlara muncuq verirlər və xəyali düşməndən qoruyacaqlarını vəd edirlər. Baxmayaraq ki, burada əsas düşmən həmin bu "ağ ağa"dır. Nəticədə, padşahlar müxtəlif "gözəl zinət əşyaları" və vədləri üçün onlara biət edirlər. Torpaqlar isə bu halda Ermənistandan Qərbin "müstəmləkəçi" hakimiyyətinin nəzarətinə keçir. İndiki Ermənistan hakimiyyəti bu sahədə yaxşı irəliləyiş əldə edib.

Mən əmin deyiləm ki, Ermənistanın hazırkı hakimiyyəti Baydenin dövründə erməni-amerikan münasibətlərində olduğu kimi Tramp administrasiyası ilə də bu və ya digər dərəcədə yaxın strateji əlaqələrə malik olacaq. Bayden administrasiyası dövründə Rusiya ilə Qərb arasında ciddi münaqişə fonunda ABŞ və Qərb bu və ya digər dərəcədə hadisələrin təsadüfi nəticəsində Cənubi Qafqaza ciddi şəkildə nüfuz etdi. Və Paşinyanın qərbyönlü rejimi ABŞ tərəfindən bu geosiyasi oyunda fəal şəkildə istifadə olunurdu və indi də olunur.

Baydenin dövründə Qərb Azərbaycan, Rusiya və İran əleyhinə məlumat toplamaq üçün Ermənistan-Azərbaycan sərhədinə mahiyyətcə Aİ-nin casus missiyasını göndərdi. Baydenin dövründə ABŞ, Aİ və Ermənistan müxtəlif sahələrdə, o cümlədən, hərbi komponentdə, təhlükəsizlik sahəsində ciddi əməkdaşlığa dair sənədlər imzaladılar və bu, ABŞ-la Ermənistan arasında dəfələrlə birgə təlimlərin keçirilməsi ilə təsdiqləndi. Qərb dövlətlərinin məqsədi Ermənistanın hərbiləşdirilməsi və ABŞ-ın Ermənistan ordusunda islahatlarının yarıgizli həyata keçirilməsidir ki, bu, Ermənistanın müdafiə naziri ilə Pentaqonun rəhbəri arasında bu yaxınlarda aparılmış danışıqlardan aydın olur. Buraya ölkədə islahatlar aparmaq və respublikanı Qərbin tələb etdiyi modelə uyğunlaşdırmaq üçün ABŞ və Aİ-dən Ermənistana müxtəlif həcmlərdə nağd pul yeridilməsi daxildir. Bunlar həm də Qərbdən Gürcüstanın Rusiyaya qarşı ikinci cəbhə açması tələbləridir. Bir ildən artıqdır müşahidə olunan Azərbaycan-Amerika münasibətlərinin pisləşməsi isə Baydenin rəhbərliyi altında ABŞ-ın Cənubi Qafqazda öz çirkin oyunlarını ilk növbədə Rusiyaya qarşı oynadığının ciddi təsdiqidir.



Eyni zamanda, xatırladığımız kimi, bir müddət əvvəl Azərbaycan prezidenti Donald Tramp haqqında kifayət qədər müsbət fikirlər səsləndirib, onun dövründə heç bir münaqişənin başlamadığını qeyd edib. Bütün yuxarıda deyilənlər, eləcə də Donald Trampın Ukrayna münaqişəsini həll etmək istəyi ilə bağlı bəyanatları onun Transqafqaz siyasətinin Baydenin siyasətindən fərqli olacağına dair müsbət əlamətlərdir. Bu siyasət köklü şəkildə dəyişdirilə bilər.

ABŞ-ın Bayden dövründə Ermənistanla əldə etdiyi digər razılaşmalar kimi hərbi və təhlükəsizlik sahəsində əməkdaşlıq üzrə razılaşmalar Trampın dövründə transformasiya oluna bilər. Yeni seçilmiş prezident Ermənistana xərclənən vəsaiti əsassız hesab edib, başqa məqsədlərə yönəldilə bilər. Tramp uzun və çətin müddət ərzində hakimiyyət uğrunda mübarizə aparıb. Buna görə də o, Bayden administrasiyasının apardığı ABŞ siyasətini kökündən dəyişəcək. O, sələfinin lazımsız mirasını atacaq.

Bundan əlavə, Tramp artıq ilk prezidentlik dövründə olduğu kimi deyil, siyasi çəkisini xeyli artırıb. Ciddi müttəfiqlər qazanıb. Bayden administrasiyası həmişə "Rusiya üçün strateji məğlubiyyət" istəyirdi və hələ də istəyir. Tramp bunun mümkün olmadığını başa düşür. O, çətin geosiyasi vəziyyətdən çıxış yollarını axtaracaq. Eyni zamanda o, Rusiya Federasiyasına təzyiq göstərmək üçün alternativ yollar axtaracaq.

Hər şey fövqəldövlətlərin öz təsir dairələrini necə bölüşdürə bilməsindən asılıdır. Biz indi tarixin yazıldığı mühüm bir məqamda yaşayırıq. Qarşıdakı altı ayda baş verəcəklər isə 10 illik vəziyyəti müəyyən edəcək. Tramp praqmatik siyasətçi, realist və biznesmendir. Buna görə də prioritetlərin ABŞ üçün nə dərəcədə faydalı olduğuna baxacaq. Bu, Cənubi Qafqaz siyasətinə də aiddir.

O, digər əsas dünya oyunçuları ilə bazarlıq edəcək, bəzi sahələrdə təkbaşına təkid edəcək, digərlərində isə təslim olacaq. ABŞ-ın Cənubi Qafqaz siyasəti qlobal kontekst prizmasından qurulacaq.

Bir müddət əvvəl Vladimir Putin deyəndə ki, Rusiya Trampdan çox Baydendən faydalanır, o, heç də yalan danışmırdı, çünki Baydenin siyasəti daha proqnozlaşdırıla biləndir və ABŞ-ı çökməyə aparır. Tramp isə daha sərt siyasətçidir. Onun ideoloji prinsipləri yoxdur, davamlılıq məntiqi yoxdur, desin ki, "əvvəlki administrasiya Ukraynaya kömək edib, Cənubi Qafqazdan Rusiyaya qarşı istifadə edib, mən də etməliyəm". Xeyr, belə bir şey yoxdur. O, yalnız ABŞ-ın xeyrinə olanı edəcək.

Görünür ki, avropalılar artıq Cənubi Qafqazın bəzi dövlət xadimləri kimi Trampa uyğunlaşmağa çalışırlar. Bir-birləri ilə necə yarışdıqlarını, onun əlini sıxdıqlarını, onunla danışmaq və nəyisə müzakirə etmək istədiklərini görə bilərsiniz; Ermənistanın baş naziri Nikol Paşinyan ABŞ-ın yeni seçilmiş prezidentinə necə yanaşdı, Gürcüstanın prezidenti Salome Zurabişvili ona necə pıçıldadı.

Görünür, qərbyönlü Paşinyan da qərbyönlü Zurabişvili kimi Trampla əlaqə saxlamağa çalışaraq, fürsətdən istifadə edərək Amerika liderini öz tərəfinə çəkmək istəyir. Bir neçə gündən sonra prezident postunu tərk etməli olacaq Zurabişvilinin mövqeyi tarazlıqdadır. O, Qərbin ona tapşırdığı vəzifəni yerinə yetirməlidir - Gürcüstanda qərbyönlü qüvvələrin hakimiyyətə gəlməsinə kömək etməlidir. O, uğur qazana bilmədi, buna görə də indi arxaya əyilərək əhalini küçələrə çıxmağa çağırır. Ermənistanla ABŞ və ümumilikdə Qərbin gələcək yaxınlaşmasının perspektivləri, görünür, Paşinyan üçün hələ də qaranlıqdır. Ona görə də hər ikisi, necə deyərlər, yıxılacaqları təqdirdə əvvəlcədən özlərinə daha yumşaq yer hazırlayırlar.

İrəvanın yerində olsaydım, Amerikanın bu tam əsarətinə girməyə tələsməzdim. Amma görünür ki, ağasına faydalı olmaq istəyir, ondan nə gözləmək olar?

Trampın öz fiqurlarını şahmat taxtasına necə yerləşdiriləcəyi hələlik məlum deyil. Dünyadakı hazırkı vəziyyət gözlənilməzdir. Biz bir gündə Yaxın Şərqdə vəziyyətin əvvəlkindən daha da pisləşdiyini, Suriyanın bir neçə saat ərzində necə dağıldığını görürük. Bununla belə, Trampın ABŞ-da hakimiyyətə gəlməsi ilə qlobal siyasətdə yeni mərhələnin başlayacağı şübhəsizdir.

***- Bütün bu bir-birinə qarışan maraqlı fakt ondan ibarətdir ki, Bakı keçən həftə Amerika dövlət katibinin onun vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsi təklifini Bayden administrasiyasının antiazərbaycan siyasətini əsas gətirərək rədd etdi. ...***

- Azərbaycan hər şeyi düzgün edir. Bu, təəssüf ki, Ermənistan və Gürcüstanda baş verənlərlə müqayisədə çox əlverişli görünür. Azərbaycan sübut etdi ki, o, Rusiyanın şəffaf, konstruktiv tərəfdaşıdır, ona arxalana biləcək müttəfiqdir. Hər iki ölkə üçün strateji əhəmiyyət kəsb edən çoxlu sayda layihələrimiz var. Azərbaycanın siyasəti düşünülmüş, tarazlı, hərəkətlərin düşünülmüş olması ilə seçilir, bütün risklər mərhələ-mərhələ hesablanır, siyasətdə tərəddüd yoxdur, məntiqlə qurulub. Artıq bir ildən çoxdur ki, Bakı ABŞ-ı açıq-aşkar tənqid edir, ona boyun əymir, çünki Azərbaycanda Ermənistandan fərqli olaraq, beləsi yoxdur. Azərbaycan suveren siyasət aparır. Eyni zamanda, mən əminəm ki, Bakı artıq Amerikanın yeni administrasiyası ilə qeyri-ictimai təmaslar aparır. Azərbaycana heç kimlə münasibətlərdə çətinlik lazım deyil, lakin Bayden administrasiyası Vaşinqtonla Bakı arasında münasibətləri çətin vəziyyətə salıb. Bakı isə bütün qlobal oyunçularla konstruktiv münasibətlərə can atır, lakin öz milli maraqları bahasına deyil. Bakının ABŞ-ın indiki siyasətinə səbri tükənib.

***-Dediniz ki, Tramp Baydenin Rusiyaya qarşı yeni cəbhələr açmaq siyasətini davam etdirməyəcək, çünki onun məntiqi əksinə, münaqişələri dayandırmaqdır. İndi Gürcüstanda nə baş verir- qərblilər dövlət çevrilişi edə biləcəkmi? Görüntülər qorxuludur, amma bir "amma" var. Ölkə boyu kütləvi etiraz aksiyaları yoxdur və toqquşmalar hələ ki vəhşilik həddini keçməyib...***

- Gürcülər kimə görəsə Rusiya ilə döyüşmək istəmirlər, mən Gürcüstanda öz bədbəxt Ukrayna qonşularının taleyini təkrarlamaq üçün güclü istək görmürəm. Tramp realist olduğu üçün bu oyunları ikinci cəbhələrə manipulyasiya etməyəcək; Gürcüstanı müharibəyə sürükləmək üçün heç bir səbəb yoxdur. Gürcüstanda çevriliş perspektivləri baxımından indiyə qədər gördüklərimi düşünürəm ki, qərblilər buna nail olmayacaqlar. Baxmayaraq ki, bu, aysberqin yalnız görünən hissəsidir...

**Tərcümə - Elçin Bayramlı**

# Xalq Heydər Əliyevi necə xatırlayır?

Heydər Əliyevin həyat yolu yüksək insani-əxlaqi keyfiyyətləri özündə təcəssüm etdirən nümunəvi məktəbdir. Onun ölkəmizə rəhbərlik etdiyi illər tariximizə intibah, milli tərəqqi, milli oyanış, nəhayət, müstəqil dövlət quruculuğu dövrü kimi daxil olub. Xalqımız 12 dekabrı Ulu öndər Heydər Əliyevin anım günü kimi böyük el məhəbbəti, minnətdarlıq hissi ilə qeyd edir. Tarixə öz adını əbədi həkk etmiş nadir şəxsiyyətin, qüdrətli siyasi xadimin həyat və fəaliyyəti hər bir Azərbaycan vətəndaşının qürur mənbəyinə çevrilmişdir. Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar var. Uzun müddət ABŞ-ın Klivlend klinikasında müalicə olunan Heydər Əliyev 2003-cü il dekabrın 12-də dünyasını dəyişib. Məhz həmin gündən dekabrın 12-si xalqımızın Ümummilli lideri, Ulu öndər Heydər Əliyevin anım günüdür. SİA şəhər sakinləri arasında Heydər Əliyevi necə xatırladıqları ilə bağlı sorğu edib.

**Şəhər sakini keçmiş döyüşçü Əhməd Hüseynov:** "1993-cü ilə qədər mən bataly-



onlarda döyüşürdüm. Heydər Əliyev gələndən sonra ordunu topladı. Mən Rusiyada qulluq etmişəm, biliyimə görə məni Akademiyaya müəllim-zabit götürdülər. O gəldikdən sonra biz ermənini məhv etməyə başladıq. Erməni mənim başıma pul qoymuşdu. İndi Qənimətlər parkını görəndə ürəyim dağ olur. Başımızda papaq hiss edirik. Allah rəhmət eləsin. Hər şeyi ələ aldı, ölkəni qaydaya saldı. Suriyanı yaddan çıxarmayın. Həmişə böyük olması başqa şeydir. Mən Ulu Öndəri yüksək xidmətləri ilə xatırlayıram".

**Şəhər sakini ADPU-nun dosenti, Aztnin tanınmış köhnə icmaçısı Yasin Qaraməmmədli:** "Mənim üçün



Azərbaycanın ən böyük şəxsiyyəti idi. Müasir dövrümüzə yaxşı ki, tale Onu bizə qismət edib. Mənim fəal siyasi icmaçılıq dövrünə Onun fəaliyyəti düşüb. Mükəmməl təcrübəli, sərt təbiətli liderə ehtiyac var idi. Şəxsiyyət kimi bu ağır vəzifənin öhdəsindən gəldi. Bu mənada Azərbaycan xalqı üçün şərəf gətirdi. Ağılla, kamalla, idrakla, rəsmi dillə desək, tarazlaşdırılmış siyasətlə beynəlxalq fəaliyyətinin hər qarışını izləmiş adamam. Azərbaycanı dövlətlər arasında tikə-tikə parçalanan ət parçasına çevrilməyə qoymadı. Böyük şəxsiyyət idi. İlham Əliyev də həmin xətti davam etdirir. Bizə başucalığı gətirən Qarabağ probleminin həqiqi həllini həll etdi. Elə düyün idi ki, qılıncla doğranıb həll olunmalı idi. Onu danışıqlarla həll etmək mümkün deyildi. Hesab edirəm ki, Azərbaycan xalqının ağır günlərdə həqiqi rəhbərinə bu xəttin davamçısı kimi minnətdar olmalıyıq. Taleyimizə, qismətimizə də minnətdar olmalıyıq".

**Şəhər sakini Azər Cəfərov:** "Heydər Əliyev haqqında hər şey xalqa məlumdur. Adından da bəllidir ki, ümummilli liderdir.





Bugünkü firavanlıq, sakitlik hamısı Onun adı ilə bağlıdır. Dünyada tanınmış siyasətçidir. Onun gəlişi ərəfəsində ölkədə vəziyyət gərgin idi. Hərə bir tərəfdə quldur dəstəsi yaratmışdı. Müstəqil olmaq istəyənlər var idi. Heydər Əliyevin gəlişi ilə bunların qarşısı alındı, ölkəni bir yerə topladı. Mənim yadımda bu cür qalıb, hamı da belə xatırlayır".

**Şəhər sakini İlkin Hüseynov:** "Heydər Əliyev haqqında xatirələr çoxdur. Mən də anım günündə iştirak edəcəm. Bizim vətəndaşlıq borcumuzdur. Övladıma da başa salıram. Azərbaycan tarixi ilə maraqlanır, himni-



mizi, atributlarımızı gözəl bilir. Mən də çalışdığım qədər öyrədirəm. Ümummilli Lider bizim babamızdır. Öz babamızı necə xatırlayırıqsa, Heydər Əliyevi də elə xatırlayırıq. Onun davamçısı Ali Baş Komandan cənab Prezident İlham Əliyev və rəhbərlik etdiyi 44 günlük Vətən müharibəsi ilə atasının vəsiyyətini yerinə yetirdi. Biz də vətəndaş olaraq vəzifəmizi icra etməliyik, borcumuzdur".

**Şəhər sakini İmmi Həsənova:** "Mən



müəlliməm. Heydər Əliyevin gözəl nitqi var idi. Gözəl danışmağı hər adam arzu edir. Əgər kim gözəl danışmağı öyrənmək istəyirsə, Ulu Öndərin danışıqlarını dinləsin. Heydər Əliyev müəllimə çox böyük qiymət verirdi. Onun müəllim haqqında dediyi cümlə heç zaman yadımdan çıxmaz: "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram"".

**Şəhər sakini Zümrüd Əhmədova:** "Ümummilli Liderimiz Heydər Əliyev çox möhtəşəm Prezident idi. Əsas odur ki,



müharibəni dayandırmışdı. Mənim xatirimdə belə qalıb. Dünyada Onun kimi siyasətçi yox idi, deyərdim. Ondan başqa siyasətçi tanımıram".

**Şəhər sakini Amid Qasımov:** "Heydər Əliyevi gözəl siyasətçi kimi xatırlayıram. Hər kəsə nümunə olacaq şəxs idi. Azərbaycan üçün az iş görməyib. Bunları saya biləcək



potensialda da deyilik. Azərbaycan üçün çox böyük uğurları olub. Xarici ölkə başçıları da hal-hazırda onun siyasətini örnək alaraq idarə edirlər. Dünyada da tanınmış siyasi xadim idi".

**Şəhər sakini Mahizə Tağıyeva:** "Heydər Əliyevi çox gözəl, güclü siyasətçi, əvəzsiz şəxsiyyət kimi xatırlayıram. Azərbaycanın müstəqilliyi, azadlığını qazandıran dahi olub. Ölkəmizi işıqlı günlərə çıxarıb. Ölkəmizdə nə varsa, hər şey Onun adı ilə bağlıdır. Ulu Öndərin apardığı siyasət indi də uğurla



davam etdirilir".

**Şəhər sakini Rasim Hacıyev:** "1980-ci ildə mənim bir iş yoldaşım var idi. Həmin şəxs Şərurdan idi. Heydər Əliyev Moskvada yaşayırdı. Bir nəfər Şərurdan oraya gedir, deyir ki, gedərsən Naxçıvana deyərsən ki, arxamca anonim məktublar göndərməsin. O da Şərura gəlir, həmin şəxslərə deyir ki, onun arxasınca anonim məktublar göndərməyin. Onlar da and içirlər ki, biz elə məktublar göndərməmişik. Sonda araşdırıb görürlər ki, ermənilər azərbaycanlıların adından Heydər Əliyevə anonim məktublar göndərirlər. Mənim xatirimdə bunlar qalıb. Allah rəhmət eləsin, o dünyasını versin. Rəhmətlik atam kommunist, Böyük Vətən müharibəsi iştirakçısı idi. Mən uşaq idim, həmişə kommunist qəzeti atamın önündə olurdu. Qəzetin hamı-



sını oxuyurdu. Öndərimizin qəzetdə məruzələri olurdu. Biz onun tərbiyəsini, siyasətini, dünyadakı gücünü qürurla hiss edirik. İlham Əliyev də onun yolunu davam etdirir. Amma atası qədər ola bilməz. Heydər Əliyev çox güclü şəxsiyyət idi. Dünyada Heydər Əliyev kimi şəxsiyyət, savadlı insan, bəlkə də, gələcək, amma nə vaxt bilmirik".

**Şəhər sakini Əli Bayramov:** "Heydər Əliyev bizim düşünən beynimiz, yeriyən ayağımızdır. Azərbaycanı qoruyub, saxlayıb və yaşadan şəxsdir. Siyasətçi kimi Heydər Əliyev dahi insan idi. Bütün sahələrdə yeganə, yüksək dərəcədə olan şəxsiyyət idi. İndi onun davamçısı övladı İlham Əliyev Onun qüdrətli siyasətini davam etdirir. Onların hesabına yaşayırıq, Allah üstlərində yar olsun. İlham Əliyevin atası Respublikada tarixi, tanınmış, güclü siyasətçi şəxsiyyət



olub. Onun sayəsində davamı kimi düşünən, yaradan insanlarımız var".

***Söylü Ağazadə***

ARAŞDIRMA

# Hansı balığa üstünlük verək?

***Balıq ürək-damar xəstəliklərinə qarşı qoruyucu təsirə malikdir. Həmçinin, sümüklərin əriməsinin qarşısını alır və zehni açaraq unutqanlığa təsir edir. Balığın faydaları, əslində, sonsuzdur. Sağlamlığımızda bu qədər əhəmiyyətli rol oynadığı üçün mütəxəssislər həftənin ən az 2 günü balıqların süfrəmizdə olması lazım olduğuna diqqət çəkirlər. Ancaq balıqların bu xüsusiyyətlərindən ən təsirli şəkildə faydalana bilmək üçün bişirmə üsuluna, istehlak edilməli olanlardan nələrdən qaçınılmasına qədər bir çox məqama diqqət yetirmək lazımdır.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Balıq omeqa 3 yağ turşuları ilə zəngin bir qidadır. Omeqa 3 yağ turşuları da ürək-damar xəstəliklərinə qarşı qoruyucu təsir göstərir. O qədər ki, 85 min postmenopozal qadın üzərində edilən bir araşdırmada həftədə 5 və ya daha çox dəfə balıq yeyən insanların infarkt riski ümumiyyətlə balıq istehlak etməyənlərə nisbətən 30 faiz azdır. Balıq tərkibindəki omeqa 3 sayəsində zehni açır, üstünlük itkisinin və unutqanlığın qarşısını alır. Omeqa 3 beyin və sinir sisteminə də müsbət təsir göstərir. Fosfor və A vitamini ilə zəngin olması gözün degenerasiyasının qarşısını alır. Balıq tərkibindəki kalsiumla sümük itkisinin qarşısını alır. Yaxşı bir zülal qaynağı olan balıq sizə toxluq hissi verir.

*Balığın yanında nələr yeyilməli və yeyilməməlidir?*



## Balıq ilə rukkola yeməyin

Xalq arasında "sümük itkisi" kimi tanınan osteoporoz müalicə edilmədikdə onurğa, bud və biləklərdə ciddi qırıqlara və şiddətli ağrılara səbəb ola bilər. Buna görə də sümük itkisinə səbəb olan amillərdən qaçınmaq çox vacibdir. Bunun bir yolu balıqla rukkola yeməməkdir!

## Üzərinə limon sıxın

Limonun tərkibindəki antioksidantlar və C vitamini orqanizmin balıqda omeqa 3 istifadəsini artırır. Balığın üzərinə bir neçə damcı limon sıxmaq balıq zəhərlidirsə, onun orqanizmə toksik təsirini azaldır.



## Balıq və qatığı birlikdə yeyə bilərsiniz

Balıq köhnədirsə, zülal strukturunda histaminin miqdarı artır. Həddindən artıq histamin də orqanizmə zəhərli təsir göstərir. Qatıq zülalında da olan histamin bayat balıq istehlak edildikdə histamin miqdarını artırır. Bu səbəbdən "qatığı balıqla yemək olmaz" deyilir. Özkahya, qatıq və südlü qidaların balıqla birlikdə əvvəl və ya sonra istehlak edilməsinin heç bir zərəri olmadığını, təzə olduqları təqdirdə toksik təsir yaratmayacağını söyləyir.

## Balığın təzə olduğunu necə anlayaq?

Balığın gözlərinə baxın: Gözlər canlı və çıxıntılı olmalıdır.

**Pullarına toxunun:** Pul canlı və parlaq olmalıdır. Sikkə toxunduqda düşməməlidir.

Cazibə qüvvəsinə qarşı tutun: Balığı əlinizlə qaldırdığınız zaman quyruğu sallanmadan dik dayanırsa, balıq təzədir.

**Gilləri yoxlayın:** Qırmızı qəlpələr balığın təzə olduğunu göstərir.

**Qoxu:** Balığın dəniz qoxusu təzə olmasının göstəricisidir.

**Basma:** Filetolu balığın üzərinə əlinizlə basdığınız zaman dəri geriyə doğru hərəkət edirsə, təzədir.



Web Screenshot

## Necə bişirək?

*Zülallar ölənə qədər bişirməyin*

Zülallar istiliklə denatürasiya olunur. Yəni balıqdakı zülalın orqanizmə heç bir faydası yoxdur. Buna görə də, qril və ya çörək bişirmə kimi daha sağlam bişirmə üsullarından istifadə edərkən, balığı çox qızartmadan bir az suli saxlamaqla bişirmə prosesini bitirin.

Şəkərli, qaymaqlı və ya soya souslarından istifadə etməyin.

Balıq özlüyündə dadlı yeməkdir. Şəkərli, qaymaqlı və soya sousları yerinə limon və tərəvəz qarnirləri ilə soba torbasında bişirilən balıqlar daha sağlam və dadlı olacaq.

## Buxar üsulunu seçin

Balıqları buxar üsulu ilə bişirin, çünki yüksək temperaturdan itirilən zülallar, vitaminlər və minerallar yemək suyuna keçmir və balıqda qalır. Kiçik balıqlara üstünlük verildikdə, daha çox yayılmış yemək üsulu olan qızartma istifadə edilir. Bu səbəbdən kiçik balıq yerinə böyük balıq seçə bilərsiniz.

*Hansı balığa üstünlük verək?*

## Omega 3 ilə zəngin balıq

Balıq deyildikdə qidalanma baxımından ağlımıza iki şey gəlir: zülal və omeqa 3. Buna görə daha yüksək protein keyfiyyətinə və omeqa 3 miqdarına malik balıqları seçmək sağlamlığınız üçün daha faydalı olacaq. Skumbriya, tuna, sardina, qızılbalıq, kilkə və mavi balıq omeqa 3 ilə zəngin balıqlardır.

## Kalsiumla zəngin balıq

Kalsium və D vitamini bir-birinin udulmasına müsbət təsir göstərir. Balıq təbii olaraq D vitamini ehtiva edir. Bu səbəbdən balıqdan aldığımız kalsium bizim üçün dəyərlidir. Sardina, qızılbalıq, skumbriya, kilkə, treska, pike, siyənək və levrek kalsiumla zəngin balıqlardandır.

## Tərkibində yüksək dəmir olan balıq

Dəmir çatışmazlığı çəkiyə nəzarət üçün böyük maneə yaradır.

***Ayşən Vəli***



# Qərbin iflasa uğrayan siyasi şouları

Cənubi Qafqazın siyasi, iqtisadi, hərbi qüdrəti ilə seçilən lider ölkəsi Azərbaycanın İkinci Qarabağ müharibəsində Qələbəsindən sonra Ermənistana hər sahədə dəstək göstərən ABŞ, Qərb, anti-Azərbaycan dairələr strategiyalarını dəyişiblər. Torpaqlarımız Ermənistanın işğalı altında qaldığı 30 ilə yaxın müddətdə guya tərəflər arasında sülh danışıqlarının tənzimlənməsi bəhanəsi ilə ATƏT-in Minsk qrupunu formalaşdıran Qərb rəsmi İrəvana dəstəyini davam etdirir. NATO-nun Lissabon, Brüssel, Çikaqo, Uels, Vaşinqton Zirvə görüşlərində, nüvə təhlükəsizliyi məsələsinə həsr olunmuş Koreya, Çikaqo sammitlərində, Münxen Təhlükəsizlik konfranslarında XXI əsrdə qloballaşan dünyada təhlükəsizlik çağırışlarına dəstək göstərən rəsmi Bakı ilə əməkdaşlıqda israrlı olduqlarını bildirənlər əslində Ermənistanın işğalçılıq, etnik təmizləmə siyasətinə hüquqi don geyindirmək üçün zaman qazanmağa çalışırdılar. 2001-ci ildə ABŞ-ın "Qoşa qüllələri"ndə baş verən hadisədən sonra Ağ Evin beynəlxalq terrorizmə qarşı mübarizə çağırışına ilk qoşulan, quru və dəniz yolları ilə insan, pul və mal qaçaqmalçılığına qarşı aparılan əməliyyatlarda iştirak edən, qeyri-qanuni fəaliyyətlərin qarşısını almaqda rəsmi Vaşinqtona yardım göstərən, beynəlxalq sülhü dəstəkləmə missiyalarına öz töhfəsini verən Azərbaycana qarşı ikili standartların davam








etməsi Cənubi Qafqazda siyasi sabitliyə ən böyük təhlükədir.

İkinci Qarabağ müharibəsindən sonra torpaqlarını öz gücü, ədalət prinsipləri, beynəlxalq hüquq normaları əsasında azad edən ölkəmizin siyasi, iqtisadi , hərbi qüdrətini görən Ağ Ev Administrasiyası, Qərb dövlətləri, Avropa İttifaqı (Aİ) və digər təsisatlar Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanması üçün pərdəarxası dəstəklərini təklif etsələr də əsl məramlarını gizlədə bilmirlər. Yalançı vədlərlə Azərbaycana əl uzadanlar əslində Ermənistana yardımlarını hər vasitə ilə davam etdirirlər.

Praqada keçirilən "Avropa Siyasi Birliyi"nin Sammiti ilə başlanan sülh sazişinə kağız üzərindəki "dəstək" də istənilən nəticəni vermədi. Ermənistanın hərdəmxəyal baş naziri Nikol Paşinyanın sərsələmələrinə, sayıqlamalarına əsaslananlar, Azərbaycanın haqlı tələbini eşitməyərək rəsmi İrəvanın idarəolunan, dəyişkən siyasətinə üstünlük verənlər hələ də planlarına uyğun təxribatlarını davam etdirir, tərəflər arasında sülh sazişinin imzalanmasına hər vasitə ilə əngəl törədirlər.

Ermənistanla Azərbaycanın şərti sərhədində əldə olunmuş razılığa görə Avropa İttifaqının azsaylı Mülki Müşahidə Missiyasını yerləşdirən, sonralar sayını artıran, "binokl diplomatiyası" ilə beynəlxalq hüquqa zidd əməllərini davam etdirən, humanitar yardım bəhanəsi ilə Sülh Fondunun vəsaitləri hesabına Ermənistana 10 milyon euro dəyərində hərbi dəstək göstərənlər də Aİ rəsmiləri idi. Sözdə bölgədə sülhün təminatına dəstək göstərən ABŞ-ın Ermənistana eyni məqsədli köməyini də unutmaq olmaz. ABŞ Dövlət katibi Antoni Blinkenin təşəbbüsü və iştirakı ilə Azərbaycanınla Ermənistanın xarici işlər nazirləri Ceyhun Bayramovla Ararat Mirzoyan arasında aparılan danışıqlar da "gözə kül üfürmək" effekti yaratdı. Ağ Evin guya Cənubi Qafqazda sabitliyin təminatına, tərəflər arasında sülh sazişinin imzalanmasına inamı artırmaq üçün göstərdiyi canfəşanlıq əslində ABŞ-ın Ermənistana planlaşırdığı hərbi dəstəyi reallışdırmaq üçün manevri imiş.

"ABŞ Avropa İttifaqı və digər həmkarları ilə birlikdə bu prosesə dəstək verib. Bugünkü görüş əldə olunmuş irəliləyişləri nəzərdən keçirmək üçün bir fürsətdir. Bütün təmaslar, o cümlədən son həftələrdə aparılan müzakirələrə əsasən düşünürəm ki, tərəflər ABŞ-ın da güclü şəkildə dəstəklədiyi sülh razılaşmasını əldə etməyə yaxındır. Bu gün ABŞ-ın razılaşmanın əldə olunması üçün nələr edə biləcəyini müzakirə etmək üçün bir aradayıq" söyləyən Dövlət katibinin sözləri də özünü doğrultmadı. Əksinə, Ermənistana hərbi yardımlarını artıran, hərbçilərinin Ermənistanda təlim- məşqlərini təşkil edən Ağ Evin Azərbaycanla Ermənistan arasında "sülh sazişinə silahlı dəstəyi" anlaşılan deyil. Beynəlxalq ictimaiyyətin diqqətində olan Vaşinqton görüşü ilə bağlı Almaniyanın xarici işlər naziri Annalena Berbokla müzakirə aparan Blinkenin bu təşəbbüsü də siyasi boşboğazlıq təsəvvürü yaratdı. COP29-un keçirildiyi günlərdə Bakıda səfərdə olan Annalena Berbokun Azərbaycan əleyhinə söylədiklərini, ABŞ ilə Almaniyanın ölkəmizə qarşı anti-Azərbaycan münasibətlərini nəzərə alsaq Dövlət katibi ilə xarici işlər nazirlərinin hansı " sülhə" dəstək verdikləri bəlli olur.

Qərbin Cənubi Qafqazda "sülh göyərçini" obrazına daha bir misal. "Avropa Siyasi Birliyi"nin Moldovada keçirilən ikinci Zirvə görüşündə sülh müqaviləsinin imzalanması üçün elə bir ciddi maneənin qalmadığını diqqətə çatdıran dövlət başçımız İlham Əliyevin söylədiyi kimi, Ermənistan tərəfi Azərbaycanın irəli sürdüyü ədalətli və beynəlxalq hüquqa əsaslanan tələblər çərçivəsində sərhədlərin delimitasiyasını aparmalı, qəbul olunmuş bəyanatlarda nəqliyyat infrastrukturunun bərpası barədəki şərtlərə əməl etməli, Zəngəzur dəhlizinin açılması ilə bağlı öhdəliyini yerinə yetirməlidir.

Brüsseldə, Moskvada baş tutan üçtərəfli görüşlərdə tərəflərin 1991-ci il Almatı Bəyannaməsinə uyğun Ermənistanın (29,800 kv. kilometr) və Azərbaycanın (86,600 kv. kilometr) müvafiq ərazi bütövlüyünə birmənalı sadiq qalmaları Kişineu danışıqlarında sülh sazişinin imzalanması ilə bağlı ümidləri artırsa da Qərbin oyuncağına çevrilən Paşinyanın fikirlərini tez-tez dəyişməsi üzündən bu sammitdə də real nəticə alınmadı. Səbəb yenə də ABŞ-ın, Qərbin buqələmun kimi hadisələrə uyğun mövqe dəyişmələri idi. Kişineu Sammitində Fransanın Prezidenti Emmanuel Makronun və Almaniya Kansleri Olaf Şoltsun iştirakı ilə keçirilən görüşdə də Ermənistan başqalarının dili ilə danışdı, dirijor çubuğu ilə hərəkət etdi.

Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanması bəhanəsi ilə İspaniyanın Qranada şəhərində beşli formatda (Ermənistan-Azərbaycan-Fransa-Almaniya-Avropa İttifaqı) keçirilməsi nəzərdə tutulan görüşdə də anti-Azərbaycan ab-havası formalaşdı. Bu səbəbdən görüşdə iştirakdan imtina edən Prezident İlham Əliyev dəfələrlə bildirib ki, bölgədən uzaq məsafələrdə yerləşən dairələrin Azərbaycanla Ermənistan arasındakı danışıqlara, sülh sazişinin bağlanması prosesinə müdaxilələri yolverilməzdir. Bu baxımdan Qrenada formatı siyasi şou kimi dəyərləndirildi. Rəsmi Bakı bir daha bildirdi ki, bu məsələlər yalnız regional çərçivədə müzakirə oluna və həll edilə bilər. Qətiyyətlə bildirildi ki, Fransanın iştirak etdiyi heç bir format Azərbaycan üçün məqbul deyil və rəsmi Bakı belə platformada iştirak etməyəcək. Qətiyyətini siyasi şou təşkilatçılarına bir daha göstərən Prezident İlham Əliyev sübut etdi ki, Azərbaycanla təhdid, təzyiq dili ilə danışmaq olmaz. Azərbaycanın apardığı, cəmi 24 saat davam edən lokal xarakterli antiterror tədbirinin sülh sazişinin imzalanmasına ümidləri artırdığı məqamda, çirkin niyyətlilərin Qranadada görüş xəyalına düşmələri əbəs deyildi. Qarabağda yaşayan erməni icmasının nümayəndələri ilə Azərbaycanın mərkəzi hakimiyyətinin nümayəndələri arasında keçirilən Yevlax, Xocalı görüşlərinin davam etdiyi, danışıqlar zamanı humanitar yardımlarla bağlı irəli sürülən təkliflərin həlli istiqamətində lazımi işlərin görülməsi üçün tərəflər arasında razılığa gəlməyin əminliyin artdığı məqamlarda bu cür siyasi şouların təşkili təbii ki, Qərbin növbəti manipulyasiyası, antiAzərbaycan gedişləri idi. Bütün təxribatların qarşısını liderlik qətiyyəti ilə alan Prezident İlham Əliyev Qərbə öz yerini göstərdi. Ermənistana dəstək naminə təşkil olunan danışıqlarda iştiraka ehtiyac görmədiyi üçün görüşdən imtina edərək Qranadaya getmədi. Bildirildi ki, Cənubi Qafqaz bölgəsinə bir dəfə də olsun səfər etməyən, Azərbaycan haqqında doğru-dürüst məlumatı olmayan, tarixini bilməyən, artıq gorbagor olmuş "Dağlıq Qarabağ respublikası"nın harada yerləşdiyi barədə anlayışdan məhrumların Azərbaycanla Ermənistan arasındakı danışıqlarını öz maraqları baxımından "təhlil etmələri" sülh sazişinə əngəldir. Hazırda gündəmdə olan sülh sazişi yalnız regional çərçivədə müzakirə və həll edilə bilər.

İkinci Qarabağ müharibəsindən keçən müddətdə bu cür oyunlar səbəbindən gecikən sülh müqaviləsi ilə bağlı oyunların bəzi məqamlarını, ABŞ və Qərbin ikili standartlardan qaynaqlanan oyunların nəzərə alsaq Birləşmiş Ştatların Dövlət katibi Antoni Blinkenin ATƏT Xarici İşlər Nazirləri Şurasının Maltada keçirilən 31-ci iclası çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsi təşəbbüsünün məqsəd və məramını başa düşmək o qədər də çətin deyil. Ağ Evdə mövcudluqlarına az qaldığı müddətdə ABŞ-ın yenidən vasitəçilik həvəsinə düşməsi Ermənistana dəstəkdən başqa bir şey deyildir. Dövlət katibinin israrlı təkidinə baxmayaraq Azərbaycan Blinkenin görüş təklifindən qəti imtina edib. Səbəb aydındır. Ermənistan -Azərbaycan münaqişəsinin 30 ilə yaxın davam etdiyi müddətdə, Vətən müharibəsindən sonra da rəsmi İrəvanı dəstəkləyən Bayden Administrasiyası daim Azərbaycanla bağlı ədalətsiz, qərəzli siyasət yürüdüb". Buna görə də Azərbaycan Ağ Evin hazırkı komandasının sülh gündəliyində iştirakını istəmir, bu vasitəçiliyi məqsədəuyğun hesab etmir". Rəsmi Bakının bu vasitəçilikdən imtina etdiyi üçün görüş baş tutmayıb.

"Vacib olan isə odur ki, Ermənistan özü indi Ermənistanın Qərbdəki bəzi dostlarından daha açıq şəkildə deyir ki, onlar bunu de-fakto tanıyırlar, çünki ötən ilin oktyabrında onlar Praqa Bəyannaməsini, yenə də ötən ilin oktyabrında Soçi Bəyannaməsini imzalayıblar. Orada razılaşıblar ki, 1991-ci il Almatı Bəyannaməsi normallaşma üçün əsas kimi götürülməlidir. Almatı Bəyannaməsi faktiki olaraq keçmiş respublikaların sərhədlərini müəyyənləşdirib və onları rəsmi sərhədlər hesab edib. Bu, o deməkdir ki, onlar artıq razılaşıblar ki, Qarabağ Azərbaycandır" sözləri ilə bu cür cəhdlərin sülh sazişinin imzalanmasına əngəl olduğunu qətiyyətlə bildirən Prezident İlham Əliyev əlavə olaraq vurğulayır ki, onlar, sadəcə, sonuncu sözü deməlidirlər: "Onlar A deyiblər, B deməlidirlər. Onlar mənim söylədiyimi söyləməlidirlər - Qarabağ Azərbaycandır! Mən bunu gözləyirəm. Ümidvaram ki, o gün gələcək."

***Xuraman İsmayılqızı***

# Oğlan şirin paydırsa, bəs qız, o, acıdır?..

***Peyğəmbərimizin "Övladlarınız arasında fərq qoymayın, əgər qoymaq lazım gəlsəydi, mən qızlarıma üstünlük verərdim" kimi dəyərli kəlamı var. Lakin zaman-zaman şahidi oluruq ki, əksər insanlar nədənsə oğlan övladına qızdan üstün baxırlar. İnsanlar psixoloji amillərin təsiri ilə, xüsusilə ata nəslinin, ocağın davam etməsi arzusu ilə ailədə, heç olmasa, bir oğlan uşağının doğulmasını istəyirlər. Gözlədikləri oğlan uşağı doğulmadıqda ər arvadını məzəmmət edir, qadın da oğlan istədikləri halda qız olduğu üçün haqsız yerə özünü günahkar sayır.***

Quranın "Nəhl" surəsinin 58-59-cu ayələrində buyurulur ki, İslamdan əvvəlki cahillik dövründə ərəblərdən birinə "qızın oldu" xəbərini verdikdə o, həddindən artıq kədərlənər, üzü qəm-qüssədən qapqara qaralar, xalqdan gizlənməyə çalışar, yenicə doğulmuş qız uşağını utana-utana əlində tutar, yaxud da onu diri-diri torpağa basdırarmış.

Ölkəmizdə də hər zaman oğlan uşağı qızdan daha çox arzulanıb, bu, faktdır. Bir-birinin ardınca doğulan qız uşaqlarına görə dağılan ailələrin də sayı çox olub, oğlan övladı dünyaya gələnədək kəskin qayınana-gəlin münasibətləri də olub, hər kəs tərəfindən haqsız yerə qınanılan analarımız da olub. Hətta oğlan övladı ilə qız övladına münasibətdə kəskin fərq ötən əsrin əvvəllərində ölkəmizdə o dərəcədə özünü büruzə vermişdir ki, "Molla Nəsrəddin" jurnalında da həmin mövzuya münasibət bildirilmişdir.

Zəmanəmizdə də ümumiyyətlə, qız övladını istəməyən adamlar çoxdur. Yaxud da bir və ya iki qız övladı olan, növbətinin hökmən oğlan olması arzusu ilə yaşayır. Bizim cəmiyyətimizdə yeni ailə quran gənclərə, yaxud uşaq gözləyən gəlinlərə, övladı olmayan adamlara deyirlər: - "Allah sizə şirin bir pay versin". Yaxşı bilsəm də ki, bu şirin pay deyiləndə nə nəzərdə tutulur, lakin hər dəfə bu sözləri yenidən eşidəndə onu ikrah hissi ilə qarşılamışam. Bu yaxınlarda belə bir söhbətlə yenidən qarşılaşdım. Orta yaşlı bir qadın uşaq gözləyən qadınla söhbətinin sonunda "Allah sənə şirin bir pay versin",- deyirdi. Yenə də həmişəki ikrah hissi ilə soruşdum: - "Siz şirin pay deyəndə nəyi nəzərdə tutursunuz?". Cavabımı belə aldım: - Oğlan uşağını deyirəm də... Mən də ona belə dedim: - Məgər qız acı paydır? Qadın tutuldu və "Yox, amma oğlan daha yaxşıdır axı. Oğlan düşmən çəpəridir, kökün daşıyıcısıdır",- dedi.









İçimdə yeni bir ikrahın baş qaldırdığını hiss etdim və dedim: "Bəs o düşmən çəpəri dediyiniz övladları kim gətirir dünyaya? Acı pay hesab etdiyiniz qızlar gətirmirmi? Deyirsiniz ki, oğlan düşmən çəpəridir. Bizim qızlarımız da elə oğlanlarımız kimi yeri gələndə düşmən çəpəri olurlar. Onlar nə vaxt kişilərdən bir addım geri qalıblar ki?..".

Qəribədir ki, bəlkə də kişilər oğlan övladını qadınlardan çox arzulayırlar. Ancaq bu istəklərini qadınlar qədər qabartmırlar. Özümüz qadın ola-ola hər kəsə "şirin pay" arzulayırıq. Lakin dərk etmək lazımdır ki, oğlan, yaxud qız olsun, fərqi yoxdur, ta ki sağlam, yaxşı, xeyirli övlad olsun. Elə bir adam tapılmaz ki, o, qonşuluğunda, qohumları arasında yaxşı və yaxud pis övlada rast gəlməmiş ola. Bu, qız da ola bilər, oğlan da. Bir ailə tanıyırdım, dörd oğlan övladı var idi. Ata vəfat etmişdi, ana isə tək yaşayırdı. Övladları uzaqda deyildilər, amma anadan ayrı yaşayırdılar. Günlərin birində ana vəfat edir, oğlanları iki gündən sonra xəbər tuturlar. Bunun əksi olaraq çox sədaqətli, ata-ana qədrini bilən övladlar var ki, xəstə, yaşlı valideynlərinə ömrünün sonunadək böyük hörmətlə yanaşır, onları əzizləyir, qayğılarını çəkirlər.

Oğlan övladına olan istəyi USM müayinələri son illərdə o həddə gətirib çatdırmışdır ki, 2011-2015-cü illərdə doğulan uşaqların statistik məlumatlarına görə hər 100 qıza 116 oğlan düşürdü. Bu nisbətə görə Azərbaycanın dünyada Çindən sonra ikinci yeri tutduğu qeyd olunurdu. Sosioloqlar hesablamışlar ki, belə davam edərsə, 2020-ci ildə doğulan hər dörd oğlana bir qız düşəcək. Bu isə demoqrafıyanın pozulması, gələcəkdə böyük problemlərin yaranacağına yol açılması deməkdir. 2017-ci ildə ölkəmizdə doğulan uşaqlarm 53,1 faizini oğlanlar, 46,9 faizini qızlar təşkil edib. 2020-ci ildə isə doğulan 126 571 uşağın 67 407 nəfəri oğlan, 59 164 nəfəri isə qız olub. 2023-cü ildə isə doğulanlar arasında oğlan uşaqlarının xüsusi çəkisi 53,1 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 46,9 faiz təşkil edib. Bu da balanslaşmada yenə də xeyli fərq var deməkdir.

2024-cü ilin yanvar-iyul ayları ərzində isə ümumilikdə 58 848 uşağın doğumu dövlət qeydiyyatına alınıb, bunlardazn 31 306-sı oğlan, 27 542-i isə qız olub. BMT-nin Əhali Fondunun hesablamalarına görə, Azərbaycanda doğulan uşaqlar arasında cinsə görə nisbətin ciddi şəkildə pozulması davam etsə, 2050-ci ilə qədər hər il doğulan oğlan uşaqlarının sayı qız uşaqlarının sayından 12 000-15 000 nəfər çox olacaq.

Burada elimizin bir deyimini xatırlayıram: - "Qız qaldıqca qızıla dönər". Lakin belə davam edərsə, deyəsən qız tapıb evlənmək oğlanlar üçün qızıl tapmağa bənzəyəcək. Düşünürəm ki, ailələrimizdə oğlan və ya qız övladları arasında ayrı-seçkilik olmamalıdır. Biz həyata özümüz gəlmədiyimiz kimi, alın yazımızı da özümüz müəyyənləşdirmirik. Hər kəsin övlad payı Ulu Yaradan tərəfindən göndərilir. Bir övlad üçün illərlə gözləyənlər var, bunu da unutmayaq. Həmin ailələr oğlan və ya qız olsun, bu barədə düşünmürlər, Allahdan tək bir övlad istəyirlər.

Cəmiyyətimizdə əsas meyarlardan biri ailədə qadınlarla yaxşı rəftar etməkdir ki, İslam dini bunu çox təkidlə buyurur. Belə ki, hətta qadınları Allahın əmanətləri kimi təqdim edərək onların hüquqları barəsində azacıq belə laqeydliyi, etinasızlığı, diqqətsizliyi ilahi əmanətə xəyanət hesab edir. Məhəmməd Peyğəmbər (s) qızı Fatiməni Əli ibn Əbutalibin (ə) evinə köçürən zaman "Ya Əli, qızım sənin əlində əmanətdir", - buyurur.

Qız övladına daim üstünlük verən Məhəmməd peyğəmbər belə bir dəyərli fikir də söyləyirdi: "Kim iki qıza baxıb yetkinlik çağına qədər onları yetişdirərsə, Qiyamət günündə o, mənimlə belə olar" (Peyğəmbər belə deyib barmaqlarını bir-birinə keçirmişdir). Belə isə yenə də düşünüb-daşınıb cəmiyyətimizi oğlan və qız övladları arasında bu xoşagəlməz fərq qoymadan xilas etməliyik. Qoy ta ki evlərimizdən uşaq səsi gəlsin. İstər oğlan, istər qız olsun, fərqi yoxdur, hər ikisi şirin paydır. Allah payımızı versin.

***Mətanət Məmmədova***



# Avropa: problemlər və günahkarlar

*Rusiya ilə NATO arasında müharibə olacaqmı?*

"Almaniyadakı yanğınların, Litvada yük təyyarəsinin qəzaya uğramasının və NATO ölkələri arasında sualtı kabellərin qırılmasının arxasında Moskva dayanır", bunu Yaponiyanın JB Press nəşri yazır. Maraqlıdır ki, müəllif bir dənə də olsun dəlil gətirmir və açıq şəkildə Rusiya ilə Avropa arasında müharibəni qızışdırır. Avropada Rusiyanın "hibrid müharibəsi" ilə bağlı gərginlik artır. Bu yay beynəlxalq logistika nəhəngi DHL şirkətinin anbarlarında bir neçə yanğın baş verib, dənizdə rabitə kabelləri zədələnib. Bəzi Avropa ölkələrində rusiyayönlü qüvvələr nüfuz qazanır. Noyabrın 25-də DHL-nin yük təyyarəsi qəzaya uğradı, səbəbləri bilinmir, lakin partlayış ehtimalı istisna edilmir. Rusiyanı günahlandıran məqalə müəllifi hesab edir ki, Rusiya və NATO-nun genişmiqyaslı münaqişə ilə üzləşməsi ehtimalı var



## Qəza, yoxsa təxribat?

Noyabrın 25-də yük təyyarəsi Vilnüs hava limanına enərkən qəzaya uğrayıb, bir ekipaj üzvü ölüb, üç nəfər sağ qalıb. Dekabrın 1-nə olan məlumata görə, ekipaj üzvlərindən birinin vəziyyəti ağır olaraq qalır. Təyyarə hava limanı yaxınlığındakı fərdi evin üzərinə düşüb, 13 sakinin hamısı təxliyə oluna bilib. Bu hadisə bütün Avropa ictimaiyyətinin diqqətini cəlb edib. İyul ayında şirkətin anbarında yanğın olub. Wall Street Journal-ın məlumatına görə, yanğının mənbəyi maqnezium əsaslı yanar maddə olan elektrik masaj aparatıdır. Məlumat üçün bildirək ki, maqnezium yanğınını söndürmək çətindir. Oktyabr ayında Alman səlahiyyətliləri uçuşun gecikməsi səbəbindən bir bağlamanın yerdə yandığını deyiblər. Təyyarənin qəzaya uğramasına hava gəmisində baş verən yanğın səbəb ola bilərdi.Noyabrın əvvəlində Litva hakimiyyəti Rusiyanı silsilə yanğınlarda günahlandırıb. Litva prezidentinin müşaviri Moskvanın təxribat törətdiyini elan edərək, onlarda hərbi kəşfiyyatın mümkün iştirakına işarə edib. Polşa prokurorları bağlamaları Şimali Amerikaya keçirməyə cəhd etdiklərini bildiriblər. Qəzaya uğrayan təyyarə Leypsiqdən Litvaya uçurdu. Litva səlahiyyətliləri araşdırma apardıqlarını və təxribat əlamətləri aşkar etmədiklərini bildiriblər. Nasazlıq və insan faktoru ehtimalı yüksəkdir, lakin terror komponentini də istisna etmək olmaz.Almaniyanın xarici işlər naziri Baerbok bunun qəza və ya "yeni hibrid müharibənin" təzahürü olub-olmadığını araşdırmağa çağırıb. Qeyri-adi hadisələr silsiləsi sadə bir təsadüf ola bilməz. "Hibrid müharibə" Ukraynada hərbi əməliyyatlarla eyni vaxtda həyata keçirilən kiberhücumlar, dezinformasiya, seçkilərə müdaxilə və təxribatlara aiddir. Rusiya münaqişə başlayandan ona rəhbərlik edir. Müəllif iddia edir ki, Politico və bir sıra Avropa KİV-ləri Moskvanın məqsədinin Avropada sabitliyi pozmaqla Ukraynaya yardımı azaltmaqdır.

İngilis Teleqraf nəşri rusların "təxribatının" yerlərini göstərən xəritəni təqdim edib: bu ilin mayında Polşada ticarət mərkəzində yanğın, Rheinmetall-ın rəhbərini öldürmək üçün sui-qəsd, İspaniyada rus qaçqın pilotunun qətli və başqaları.Noyabrın 17 və 18-də Litva ilə İsveç, Almaniya və Finlandiyanı birləşdirən dənizaltı rabitə kabelləri zədələnib. Noyabrın 19-da Almaniyanın müdafiə naziri Pistorius cinayəti törədənlərin adını çəkmədən təxribat ehtimalının yüksək olduğunu açıqlayıb. Berbok kimi o, anbar yanğınları və kiberhücumları xatırladıb: "Bu, sadəcə olaraq təsadüf ola bilməz".Dekabrın 3-də Brüsseldə keçirilən iclasda NATO-nun baş katibi Rutte Rusiya və Çinin sabitliyi pozan hərəkətlərinə qarşı mübarizədə müttəfiq qüvvələrin birləşməsini elan edib. Rusiya iştirakla bağlı bütün ittihamları rədd edir. Britaniya kəşfiyyatı MI6-nın rəhbəri Riçard Murun sözlərinə görə, Rusiyanın Avropadakı hərəkətləri təsdiqlənib. Bizi nüvə silahı ilə hədələməklə Putin bizi Ukraynaya yardımdan imtina etməyə məcbur etmək istəyir.

## Rusiya ilə Avropa arasında genişmiqyaslı münaqişə ehtimalı nə qədərdir?

Almaniya Federal Kəşfiyyat Xidmətinin rəhbəri Bruno Kahl Rusiyanın hibrid hücumlarının güclənəcəyinə qərar verib. Bu baxımdan NATO Nizamnaməsinin kollektiv müdafiəni nəzərdə tutan 5-ci maddəsinin icrası təhlükəsi var. Bu o deməkdir ki, üzv dövlətlərdən birinə hücum olarsa, Alyansın qalan üzvləri yardım göstərməyə borcludurlar. Politico hesab edir ki, təxribat elə planlaşdırılıb ki, 5-ci maddənin tətbiqinə səbəb olmasın. Rusiya getdikcə təzyiqi artırır. Sabotaj ifaçıları Telegram və digər sosial şəbəkələr vasitəsilə işə götürülür. Bunlar, bir qayda olaraq, 20-30 yaşlı, cinayəti olan, texnologiyanı yaxşı bilən kişilərdir. Onlar, məsələn, partlayıcı hazırladıqlarını bilmirlər.

## Avropada rusiyayönlü namizədlərin qələbələri: Rusiya günahkardır

Danimarkanın baş naziri Mette Frederiksen deyib ki, Rusiya hücumları hər gün baş verir və sərt cavab lazımdır. Politico-ya görə, Avropa ölkələri qətiyyətli addımlar atmalıdır, lakin bəziləri daha da gərginləşmədən qorxur. Nəşr hibrid hücumların "terror hərəkətləri" kimi tanınması faktını qorxaqlıq adlandırır. Avropa Rusiya ilə bağlı siyasətində heterojendir. Dekabrın 1-də Avropa İttifaqının baş diplomatı xanım Kallas Kiyevə səfər edib. O, sosial şəbəkələrdə yazıb ki, Aİ Ukraynaya münaqişədə qələbə arzulayır. Slovakiyanın baş naziri Fiko buna belə cavab verib: "Nə Avropa Komissiyasının üzvləri, nə də Aİ rəhbərliyi bütün iştirakçılarla razılaşmadan bütün assosiasiya adından bəyanat verə bilməz".Fiko Qərbi Putini haqsız yerə şeytanlaşdırmaqda ittiham etməklə tanınan rusiyayönlü siyasətçidir. O, keçən il Ukraynaya dəstəyin əleyhinə çıxaraq seçkilərdə qalib gəldi və seçki kampaniyasında verdiyi vədlərə əməl etdi və yardımı kəsdi. Təbii ki, Avropada rusiyayönlü dövlətlərin artması Putinin əlindədir. Hibrid hücumun bir növü seçki müdaxiləsidir. Noyabrın 24-də Rumıniyada keçirilən prezident seçkilərinin birinci turunda sağçı rusiyapərəst namizəd Georgesku üstün olub. Seçkilərdən əvvəl Georgeskunun dəstəyi cəmi beş faiz civarında idi, ona dəstək artımı Rusiyanın müdaxiləsi ilə bağlı şübhələri artırdı. Georgeskunun hakimiyyətə gəlməsi Rumıniyanın indiyədək Avropaya yönəlmiş xarici siyasətinin kursunu kökündən dəyişə bilər.

## MI6: Ukraynaya yardım niyə dayandırılmamalıdır?

Hökumətin Aİ-yə üzvlüklə bağlı danışıqları dayandırmaq qərarından sonra kütləvi etirazların davam etdiyi Gürcüstanda seçkilərə müdaxilə ilə bağlı şübhələr də var. Rusiya oktyabrda keçirilən parlament seçkilərində hakim "Gürcü Arzusu" partiyasının böyük qələbə qazandığı zaman dezinformasiya yaymaqda ittiham olunur. Avropapərəst prezident Salome Zurabişvili istehza ilə bu seçkiləri Şimal Hərbi Dairəsi ilə paralel apararaq "Rusiyanın xüsusi əməliyyatı" adlandırıb.Mİ6-nın rəhbəri Riçard Mur son çıxışında deyib ki, Ukraynaya dəstək verməməyin qiyməti çox yüksək ola bilər, Avropanın indi ödədiyi ilə qeyri-mütənasibdir. Əgər Putin Ukraynada qalib gəlsə, Çin, Şimali Koreya və İran bundan sonrakı fəaliyyət üçün təlimat kimi qəbul edəcəklər. Mur Britaniyanın ABŞ-dakı növbəti səfiri olmağa namizəddir. Ehtimal etmək olar ki, bu sözlər Ukraynaya hərbi yardımın həcmindən dəfələrlə narazılığını bildirən Tramp üçün də nəzərdə tutulub.

## Fransa və Almaniya: Avropanın mərkəzində güc boşluğu

El Pa?s yazır ki, hər iki aparıcı Avropa gücündə bir anda yaranan hakimiyyət boşluğu xüsusilə narahatedicidir. Almaniyada problem iqtisadi və sənaye xarakterlidir, Fransada isə siyasidir. Avropanın bu çağırışlara cavab verməməsi qitəni dünya səhnəsində təsir imkanlarından məhrum edir. İki ölkədə eyni vaxtda baş verən siyasi böhranlar, Putinin təzyiqi və Trampın yüksəlişi qarşısında Aİ-ni aydın lidersiz qoyur.Güclü Almaniya və Fransa olmadan güclü Avropa ola bilməz. Buna görə də biz narahatıq ki, Donald Trampın Amerika millətçiliyinin Ağ Evdə yenidən bərpa oluna biləcəyi və Ukraynaya dəstək mövzusunda qeyri-müəyyənliyin artdığı ən pis anda hər iki ölkədə eyni vaxtda hakimiyyət boşluğu yaranıb. Qitənin tarixi inteqrasiyasına mane olan siyasi böhran onun bütün dünyada təsirini zəiflədir. Üstəlik, bu, avropalıların yaxın aylarda yaranacaq ikili çağırışlara cavab vermək qabiliyyətinə mane olur. Bir tərəfdən Tramp yanvarda ikinci prezidentlik müddətinə başlayacaq. Digər tərəfdən, Rusiya-Ukrayna münaqişəsinin həlledici mərhələsi başlayacaq ki, bu da danışıqlarla yekunlaşa və Ukraynanın Qərbə əsaslanan suveren Avropa dövləti və ya Rusiya və Vladimir Putinin təsiri altında olan bir ölkə kimi gələcəyini əvvəlcədən müəyyən edə bilər.Çərşənbə günü sol və ifrat sağçıların səs verdiyi etimadsızlıq səsverməsi Milli Assambleyanı üç bloka ayıran növbədənkənar qanunverici seçkilərdən sonra vəziyyəti tənzimləmək üçün cəmi üç ay əvvəl Makron tərəfindən təyin edilmiş baş nazir Mişel Barnierin hökuməti istefaya getdi. Marin Le Penin başçılıq etdiyi ifrat sağçı, büdcə ilə bağlı solçuların etimadsızlıq səsverməsini dəstəkləyərək Barnieri vəzifəsindən uzaqlaşdırdı. Bu büdcə mübahisələrinin ortasında Almaniyada sosial demokratlar, ekoloqlar və liberalların koalisiyası dağıldı. Noyabrın 6-da Sosial Demokrat Partiyasının kansleri Olaf Şolz liberal maliyyə naziri Kristian Lindneri istefaya göndərdi və seçkiləri fevralın 23-nə təyin etdi. İqtisadi prioritetlər məsələsi yenidən gündəmə gəldi: Sosial Demokratlar və ekoloqlar investisiyaların artırılmasını, liberallar isə qənaətin tərəfdarı oldular. Bu həll olunmaz məsələyə çevrilib.Nəticədə, Fransa prezidentinin səlahiyyətləri iki il yarımdan sonra başa çatır, lakin o, parlament çoxluğuna malik deyil və iyun ayına qədər təkrar qanunvericilik seçkiləri keçirə bilməz. Almaniya kansleri də səs çoxluğuna malik deyil və seçkilərin nəticələrini gözləyir, ondan əvvəl sorğular onun Xristian Demokrat Fridrix Merzlə müqayisədə əlverişsiz olduğunu göstərir. Fransada parlament çoxluğunun olmaması və Almaniyada koalisiya daxilində parçalanmalar səbəbindən idarəolunmazlıq riski vəziyyəti daha da gərginləşdirir. İyulda Makronun Assambleyanı buraxması və Şolzun seçkiləri təxirə salmasında məqsəd siyasi vəziyyəti "aydınlaşdırmaq" olub. Hər kəs sabitliyə ehtiyac duyduqda nəticə daha çox qeyri-müəyyənlik ola bilər.Almanlar fevral ayında yeni hökuməti seçəcəklər və ifrat sağçıların parlamentdə iştirakını artıracağı ehtimal edilir, lakin geniş yayılmış fikirlərə görə, növbəti hökumət mötədil mərkəzçi partiyaların koalisiyası olacaq. Almaniyanın problemləri iqtisadi tənəzzül, 20-ci əsrin sənaye modelinin sonu və konstitusiya borc limiti ilə məhdudlaşdırılan dövlət investisiyalarının olmamasıdır.Yaya qədər yeni Milli Assambleya seçə bilməyən fransızlar növbəti altı ayı müvəqqəti hökumətin tərkibində keçirməyə məcburdurlar. Fransada ifrat sağ və radikal sollar səslərin yarısını və ya daha çoxunu təşkil edir, ona görə də Le Penin partiyasının gec-tez hakimiyyətə gəlmək üçün hər şansı var. Birlik mədəniyyətinin olmaması indiki parlament parçalanmasını həlledilməz problemə çevirir. Üstəlik, hansı hökumət qurulacaqsa, o, qeyri-populyar ixtisarlarla üzləşəcək.Almaniyada böhran iqtisadi və sənaye xarakterlidir, Fransada isə idarəolunmaz kəsirə, borclara və hələ də yunan tipli böhrandan uzaq qorxulara baxmayaraq, böhran əsasən siyasi xarakter daşıyır. Avropada birliyin olmaması, məsələn, Merkosur müqaviləsinin ona qarşı çıxan Makron olmadan təsdiqlənməsinə gətirib çıxarıb. Avropanın mərkəzində siyasi liderlik boşluğu yaranıb. Bunu Polşanın liberal, avropapərəst baş naziri Donald Tusk, eləcə də Avropa Komissiyasının sədri Ursula fon der Leyen kimi şəxslər qismən kompensasiya edə bilər, lakin bu kifayət deyil.Almaniyaya ölkəni Aİ-nin liderlik statusuna qaytara bilən və iqtisadiyyatı yoluna qaytarmaq üçün lazım olan sərmayələri və islahatları həyata keçirə bilən güclü, Avropayönlü və Atlantikapərəst hökumət lazımdır. Həm Scholz, həm də yenidən seçilərsə Merz buna zəmanət verə bilər, lakin vəziyyəti düzəltmək üçün Aİ-nin çevikliyinə ehtiyac duyacaqlar. Fransada Makron mərkəz və sağçılarla müqavilə bağlamağa hazır olan sosialistlərlə razılığa gəlməlidir. Bu o deməkdir ki, o, ifrat solçuları təqlid edə və ölkədə sabitliyi təmin edəcək və ifrat sağçıların hakimiyyətə gəlməsinin qarşısını almaq üçün demokratik cəbhəni bərpa edəcək ümumi gündəmi təbliğ edə bilməz. Trampın qayıdışı və sərhədlərində Rusiyadan gələn təhlükə ilə üz-üzə qalan Avropa üstəlik daxili parçalanma səbəbindən tələyə düşməkdədir. Bir sözlə, zaman Avropanın əlehinə işləyir.

**V.VƏLİYEV**

# Özünə məşğulluq yaradan kənd sakini: “Sevincdən ağlamışdım...”

## Vüsalə Hüseynova: "Hər şey oğluma unudulmaz ad günü keçirmək istəyi ilə başladı"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti çərçivəsində hazırlanıb*






Bölgələrdəki qadınlarımızın özünə iş tapması, gəlir əldə etməsi hər zaman əlçatan olmur. Kəndlərdə kollektiv təsərrüfatlar, istehsal müəssisələri olmadığına görə kənd qadınlarının çıxış yolu öz işini qurmaq olur. Bu gün ölkəmizin müxtəlif bölgələrində, rayonlarda və kəndlərdə öz kiçik biznesini qurub gəlir əldə edən kifayət qədər çox qadın var ki, həm ailə büdcəsinə, həm də dövlətə fayda verirlər. Bu silsiləmizdə həmin qadınların haqqında yazacağıq. İlk yazımızı Tovuzun Dzqırıqlı kəndində yaşayan Vüsalə Hüseynovanın haqqında hazırladıq. Vüsalə 34 yaşındadır, bir oğul anasıdır. Öz işini 6 ildir qurub və bu gün yaşadığı rayonda əl işləri, düzəltdiyi bəzəklər, dekorlar, xonçalar, eksklüziv hədiyyəliklər ilə tanınır.

***-Vüsalə, necə və nə vaxt ağlına gəldi ki, əl işlərindən pul qazana bilərsən? Kiçik kənd, imkanlar məhdud, alıcı qüvvəsi zəif - belə bir mühitdə pul qazanmaq da asan deyil.***

- Əvvəl pul qazanmaq deyildi məqsədim, ideyamı həyata keçirmək idi. Müəllimim qardaşım olub. O montaj işləri görürdü, zamanla mənim təhrikimlə əl işləri də hazırlamağa başladı. Mənim çox istedadlı qardaşım var, əl qabiliyyəti aladır. Taxtadan, şirin xəmirdən, simdən, adi kağızdan çox maraqlı əşyalar, dekorlar hazırlayırdı həvəsi olanda. Mən də onun təsiri ilə həvəsləndim. İlk dəfə oğlumun 5 yaşında cəhd elədim, ad günü yaxınlaşırdı və həvəsləndim ki, oğlum üçün maraqlı nəsə edim. Əvvəlcə maraqlandım ki, bu çevrədə tort üzəri üçün dekor hazırlayan kimsə varmı, ad günü dekorunu kimə sifariş edə bilərəm, axı oğlumun ilk yubileyi idi. Bilirsiniz ki, kəndlərdə uşaqların əyləncə imkanları zəifdir, ona maraqlı, yaddaqalan ad günü məclisi təşkil etmək istəyirdim. Amma elə birini tapa bilmədim ki mənim istədiklərimi hazırlasın.

Rayonda, kənddə bəzək işləri üçün xammal tapmaq çətindir, xırdavat dükanlarında çox şey olmur. Həmin ərəfədə yolum Bakıya düşmüşdü, bəzək ləvazimatları dükanına girəndə fikirləşdim ki kaş bu mağazalardan kənddə də olaydı, nə gözəl əl işləri düzəltmək olardı. Şirin xəmir - marçipandan tortun üzərinə oğlumun sevdiyi cizgi film qəhrəmanının fiqurunu hazırlamaq gəldi ağlıma, yadıma düşdü ki, qardaşım plastilindən super fiqurlar düzəldir. İnanırsınız, kəndə qayıdan kimi qaçdım qardaşımın yanına, dedim gəl bu fiquru düzəlt, elə bununla da bu işə girişək, bu sahədə sənin istedadın var, mənim də fantaziya və ideyam, birləşək bir biznes quraq. Əvvəl imtina etdi, vaxtının olmadığını dedi. Həvəsdən düşdüm, kor-peşman qayıtdım evə. Səhər qardaşımdan mesaj gəldi, baxdım ki istədiyim cizgi fiqurunu hazırlayıb, şəklini çəkib mənə göndərib. Səmimi deyirəm, sevincdən ağladım. Beləcə başladıq işə. Həm şirin xəmirdən fiqurlar düzəldirdik, həm də dekor, çap işləri görürdük. O vaxt kompyuterim yox idi, istədiyim dizaynları telefonda hazırlayıb göndərirdim qardaşıma, o da hazırlayırdı.

***Neçənci ildən gedir söhbət?***

-2018-ci ilin yanvarından işə başladıq. Gözlədiyimizdən də daha çox sürətlə məşhurlaşdıq, sifarişimiz getdikcə artmağa başladı. Sonra pandemiya başladı, işimizdə durğunluq yarandı təbii olaraq. Amma yenə də həvəsdən düşmədik. Mən öz ideyalarımı, fantaziyalarımı işə salaraq telefonumla dizayn edirdim, göndərirdim qardaşım çap edirdi, eləcə də tort üzəri maket və fiqur işləri hazırlayırdıq. Dekabradək belə davam etdik. Dekabrda yenə mənim israrımla qardaşımın həyat yoldaşını da öz komandamıza daxil etdik, o gözəl tortlar bişirirdi, bu bacarığını dəyərləndirmək istədik. Beləcə mən montaj edirəm, qardaşım fiqurlar və çap işini görür, gəlinimiz də tort bişirirdi. Tortlarımıza tələbat günü-gündən artdı, çünki sifarişçinin istədiyi bəzəyin eynisini düzəldirdik. Tutaq ki, bir foto göstərirdi internetdən, o tortun eynisini istəyirdi və hazırlayırdıq. Bizim əl işlərimizin məşhurlaşmasında ən əhəmiyyətli məqam da bu oldu, sifarişçinin nə istədiyini bilirdik, onu yola vermirdik, nazı ilə oynayırdıq.

Aradan bir neçə il keçdi, qardaşım işi ilə bağlı ailəsini götürüb Rusiyaya köçməli oldu. Bu bizim biznesimizə zərər verdi təbii ki, çünki biz komanda halında işləyirdik, hərənin öz işi vardı. Başladım fikirləşməyə, necə edim ki biznesimiz öz gücünü itirməsin? Kompyuterdən anlamıram, çap proqramını bilmirəm, mən yalnız telefonla dizayn edirəm, ideya verirəm. Qardaşım "kompyuteri öyrən, özün öz işinin sahibi ol" dedi. Məcbur öyrənməli oldum. Asanlıqla öyrəndim, kompyuter aldım, başladım işə. İndi həm ideya verirəm, həm dizayn edirəm, həm də kompyuter işlərini görürəm. Qısası, öz işimin sahibiyəm və bu gün yaşadığım kənddə dekor, tort üzəri çap işlərinin 95 faizini mən edirəm.






















***-Daha çox hansı cür əl işlərinə tələbat var?***

-Hər mövsümün öz sifarişləri olur, məsələn məktəblərin açılmasına az qalmış məktəblilər üçün dekorların, əşyaların sifarişi bol olur, adlara özəl xətkeşlər, qələmlər hazırlayıram, Zəfər Günündə xüsusi döş nişanları düzəldirəm, yeni ildə yolka üçün şəxsə özəl bəzəklər sifarişi edirəm, tort bişirənlər üçün tort bəzəkləri hazırlayıram, ad günləri, sünnət toyları üçün dekor qururam. Foto çəkirəm, foto böyüdürəm, surətçıxarma işləri edirəm, xınayaxdı üçün dekor və stəkan hazırlayıram, şokolad buketi düzəldirəm. Yəni işim o qədər çeşidlidir ki, deyə bilmirəm ki konkret bu işi görürəm, hər gün fərqli bir sifariş alıram və edirəm. Bu mənim də xoşuma gəlir ki, yenilikçiyəm, passiv işləmirəm. Məncə mənim əl işlərimə olan tələbatın səbəbi də budur.

***-Sifarişçilər daha çox kimlər olur?***

-Hər yaşdan, hər kateqoriyadan olur. Böyüklərə foto xidmətləri, surətçıxarma işləri görürəm, tort ustalarından tort üçün bəzəklər sifarişi alıram, yeni doğulanların "xoş gəldin" məclislərinin dekorunu hazırlayıram, "dişçıxarma", "qırxçıxdı" mərasimləri üçün bəzəklər düzəldirəm. Yəni hər yaş kateqoriyası üçün sifarişim olur. Sifarişçilərin çoxu qadın olur, çünki belə şeylərə qadınlar daha çox maraq göstərir. Kişilər yalnız sənəd surəti çıxartdırır, sənəd üçün foto çəkdirir.

***-Həyat yoldaşın dəstək verdi işinə?***

-İşə yeni başlayanda birinci onunla məsləhətləşdim, çünki onun razılığı vacibdir. Bu elə bir işdir ki, həvəs və ruh yüksəkliyi şərtdir, ideyalar elə olduqda yaranır. Ona dedim ki, kiçik kənddir, mən işsizəm, darıxıram, başımı qatmaq istəyirəm bu işlə, həm də az da olsa gəlir əldə edərəm. Həmçinin o zamanlar bu zonada belə işlər görən kimsə yox idi, bazar boş idi, fürsət idi işə başlamaq üçün. Dedi ki, alınmaz, alıcı qüvvəsi zəifdir, kimdir kiçik bir kənddə o cür sifarişlər edən, sifarişin olmayacaq. Dedim ki, eybi yoxdur, biz başlayaq, olsa nə yaxşı, olmasa da cəhd etdik deyərik. Etiraz etmədi. Mənim uğurumun səbəbi işə qardaşımla başlamağım oldu, nə işə getdim, nə kənar xərclərim oldu, evimdə oturub telefonla düzəltdim, internetlə qardaşıma göndərdim, o da hazırladı. İndi söz düşəndə həyat yoldaşım mənə "afərin" deyir, bir şeyə ehtiyacım olanda dəstək göstərir.

***-Gəlirin necə, qane edirmi?***

-Bu işə başlayanda gəliri düşünmədən başlamışdım. Mən ideyalarımın boğulmaması və oğluma yaddaqalan bir ad günü keçirə bilmək üçün girişdim işə əslində. Bilmirdim ki, işimizi böyüdə və buradan gəlir əldə edə biləcəyik. Amma indi şükür ki, öz xərclərimi özüm ödəyirəm, kəndlərdə olan işsizliyi, qadınlar üçün məşğuliyyət yerinin olmamasını da nəzərə alaraq işimdən iki əlli yapışıram.

***-Yalnız kəndiçi sifariş qəbul edirsən?***

-Əvvəl elə idi, amma indi bütün Tovuza, kənar rayonlara da xidmət göstərirəm. Hətta Rusiyada da sifarişçilərim olur, orada yaşayan azərbaycanlılar ad günlərində, sünnət və toylarda, körpə doğulanda, diş çıxaranda sifariş istyəyirlər. Orada bu biznes növü inkişaf etməyib, həm də rusların bizim kimi düşünməmələri, fərqli fikirdə olmaqları da rol oynayır bu məsələdə. Sifarişçilərim deyir ki, onların dediyini ruslar anlamır, milli adətlərimizi bilmədikləri üçün istədiklərini hazırlaya bilmirlər. Elə vaxt olur ki 1 il əvvəldən sifariş verirlər, gedən olanda hazırlayıb göndərirəm, elə olur ki mən dizayn işini görürəm, çap işini orda həll edirlər. Bütün imkanlardan istifadə edirəm ki, sifarişçi narazı qalmasın. Onların məmnun qalmağı mənim uğurumdur.

**Lalə Mehralı**

MÜSABİQƏ

# Əmək pensiyasını təyin edən orqandan məhkəməyə şikayət edilə bilərmi?



MÜNASİBƏT

**“Azərbaycan Respublikasının vətəndaşlarına və Azərbaycan Respublikası ərazisində daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər əsaslarla pensiya ”Əmək pensiyaları haqqında” Qanuna əsasən təyin edilir və ödənilir”. Bu sözləri SİA-ya açıqlamasında vəkil Aysel Seyidova deyib.**

O bildirib ki, əmək pensiyası - ”Əmək pensiyaları haqqında” Qanununda nəzərdə tutulmuş qayda və şərtlərlə müəyyən edilən və məcburi dövlət sosial sığortaolunanların onlara əmək pensiyası təyin olunduqdan əvvəl aldıqları əməkhaqqı və digər gəlirlərin, yaxud sığortaolunanların ölümü ilə əlaqədar onların ailə üzvlərinin itirdikləri gəlirlərin kompensasiyası məqsədilə vətəndaşlara aylıq pul ödənişidir: ””Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 1 fevral 2023-cü il tarixli Qanununa əsasən, əmək pensiyasının minimum məbləği 2023-cü il fevralın 1-dən 280 manat məbləğində müəyyən olunub. Qanuna uyğun olaraq əmək pensiyasının aşağıdakı növləri müəyyən edilir: yaşa görə əmək pensiyası; əlilliyə görə əmək pensiyası; ailə başçısını itirməyə görə əmək pensiyası.

Azərbaycan Respublikasının qanunları ilə müxtəlif pensiya hüququ olan şəxslərə öz arzuları ilə yalnız bir pensiya təyin edilir. Əmək pensiyası hüququ olan şəxslər əmək pensiyası hüququnun yarandığı gündən heç bir müddət məhdudiyyəti olmadan istənilən vaxt əmək pensiyasının təyin olunması üçün müraciət edə bilərlər. Əmək pensiyasının təyin edilməsi barədə təqdim edilmiş ərizəyə və siyahısı əmək pensiyasını təyin edən orqan tərəfindən müəyyən edilmiş sənədlərə onların əmək pensiyasını təyin edən orqana daxil olduğu gündən ən geci 10 gün müddətində baxılmaqla təyinat aparılır. Müraciət edən şəxsin əmək pensiyası hüququ olmadığı hallarda əmək pensiyası təyin edən orqan pensiya təyin olunmasından imtina edilməsi barədə qərarı 5 gün ərzində imtinanın səbəblərini göstərmək şərtilə bütün sənədlərlə birlikdə ərizəçiyə göndərir”.

”Əmək pensiyasını təyin edən orqanın qərarından məhkəməyə şikayət edilə bilər. İnzibati orqan tərəfindən məhkəmə qərarları və ya qərarı ilə onun üzərinə qoyulmuş öhdəliklər icra edilmədikdə, birinci instansiya məhkəməsi inzibati məhkəmə icraatı iştirakçısının ərizəsinə əsasən və ya xidməti vəzifəsinə görə, inzibati orqana icra üçün müddət müəyyən edir və cərimə tətbiq olunacağı barədə həmin orqana xəbərdarlıq edir. Müəyyən edilmiş müddətdə inzibati orqan tərəfindən onun üzərinə qoyulmuş öhdəliklər icra olunmadıqda, məhkəmə inzibati orqanı 50.000 manatadək məbləğdə cərimə edə bilər” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Bu sürücülər cərimələnəcək - yol polisindən XƏBƏRDARLIQ



Dövlət qeydiyyat nişanlarını təmiz saxlamayan sürücülər cərimələnəcək. SİA xəbər verir ki, bu barədə Baş Dövlət Yol Polisi İdarəsinin dövlət qeydiyyat nişanları ilə bağlı sürücülərə müraciətində bildirilib. Qeyd olunub ki, qanunvericiliyə əsasən hərəkətdə olan nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanlarının aydın görünməsi üçün onun təmiz saxlanılması təmin edilməlidir. Bu vəzifənin yerinə yetirilməməsi avtomobilin istismarı qaydalarının pozulması hesab edilir və inzibati məsuliyyət yaradır:

”Son günlər müşahidə olunan yağmurlu hava şəraiti ilə əlaqədar avtomobillərin dövlət qeydiyyat nişanlarının təmizliyinə daha çox diqqət ayırmalıdır. Təəssüf ki, bəzən yağmurlu hava şəraitindən sui-istifadə edərək avtomobilinin dövlət qeydiyyat nişanlarının təmizliyinə əhəmiyyət verməyən, hətta bilərəkdən nişanların üstünü süni şəkildə çirkləndirən sürücülərə rast gəlinir ki, bu da xoşagəlməz nəticələrə səbəb olur”.

# Ağsuda 2 avtomobil toqquşub, sürücü ölüb

***Ağsuda ölümlə nəticələnən yol qəzası olub. 1960-cı il təvəllüdlü Bəbir Şirin oğlu Mehdiyevin idarə etdiyi ”VAZ 21074 minik” markalı avtomobillə 1987-ci il təvəllüdlü Elmin Ənnağı oğlu Nağıyevin idarə etdiyi ”Toyota Prius” markalı minik maşını toqquşub.***



Nəticədə ”VAZ 21074 minik” markalı avtomobil sürücüsü Bəbir Mehdiyev hadisə yerində ölüb, avtomobildə olan sərnişin 2014-cü il təvəllüdlü Həsənli Ceyhun Vüqar oğlu, ”Toyota Prius minik” markalı avtomobilin sürücüsü Elmin Nağıyev və avtomobildə olan 1997-ci il təvəllüdlü Kamilov Mirzə Mirvahid oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alıblar. Faktla bağlı cinayət işi başlanıb.

## ELAN

Sabirabad rayonu, Sarxanbəyli kənd sakini Babayev Möhübbət Əvəzağa oğlunun adına verilmiş pay torpağının 909013071183 Reyestr Blank, 094825 saylı plan və ölçü itdiyi üçün etibarsız sayılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700